www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 may 2019-cu il Çərşənbə axşamı № 109 (7279) Qiymәti 60 qәpik

**Xəbər**

## Kürdəmirdə dəhşət - ata avtomobillə 2 yaşlı qızını vurub öldürdü

yazısı səh.2-də

# ERMƏNİSTANDA ƏKS-İNQİLAB HAVASI: KREML "DÜYMƏYƏ" BASIR, İRƏVAN QARIŞIR

Qarabağ klanı Moskvanın "dobro"su, Köçəryanın başçılığı ilə hökumətə qarşı ayaqlanır; Paşinyan ətrafında həlqə daralır; Bakı üçün yeni Qarabağ fürsəti...




yazısı səh.8-də

**Gündəm**

## "Üçüncü qüvvə təxribat etməsə, Fars körfəzində müharibə olmayacaq"



Politoloq hələ başlamayan İran-ABŞ müharibəsinin fəsadlarından danışdı; **Elxan Şahinoğlu:** "Amerika istəyir ki, İranı iqtisadi yolla çökdürsün və rejim dəyişsin"

yazısı səh.12-də

## Eyyub Yaqubovun konserti ətrafında qalmaqal böyüyür - üzr istəmə tələbi

yazısı səh.3-də

## Ədalətli məhkəmə sistemi - investisiya üçün yaşıl işıq

yazısı səh.5-də

## Ermənistan və Qarabağ erməniləri arasında didişmə

yazısı səh.11-də

## Enerji sistemi yaya necə hazırlaşır - rəsmi qurumlardan açıqlama

yazısı səh.7-də

## "Sovetski"nin bitməyən kompensasiya davası

yazısı səh.4-də

## ABŞ üçün Rusiya SSRİ-dən çətin rəqibə çevrilib

yazısı səh.9-da

## Məhəmməd Hadi küçəsində ağac kəsənlər cəzalandırıldımı...

yazısı səh.10-da

## Türkiyədə yeni "kürd açılımı" iddiası

yazısı səh.13-də

**Ramazan ayının 16-cı günü**

İftar 20.11. İmsak 03.34-dək (QMİ)

16-cı günün duası: "İlahi, bu gün məni yaxşı adamlarla dostluq etməyə müvəffəq et! Belə bir gündə məni pis insanlardan uzaqlaşdır! Səni Allahlığına and verirəm, Öz rəhmətinlə məni əbədi məkan olan behiştində məskunlaşdır! Ey, aləmləri Yaradan!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

## Ordumuzun genişmiqyaslı təlimləri başladı - hücum edəkmi...

Politoloq: "Azərbaycan indiki vaxtda hücuma keçsə, bu, beynəlxalq aləmdə mənfi qiymətləndiriləcək"

yazısı səh.5-də



Alimpaşa Məmmədov

## Şəmkirin icra başçısı Dilqəm Əsgərovun oğluna kişi sözü verib...

yazısı səh.6-da



Vladimir Zelenski

## Ukraynanın yeni prezidentindən inqilabi çağırışlar

yazısı səh.13-də



Nurlana Əliyeva

## Xanım rektor "müxalifətçilərin üzünə tüpürün" deyibmi - BSU-dan açıqlama

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019



## Prezident Kürdəmirdə “ASAN Xidmət” mərkəzinin tikintisinə 20 milyon manat ayırdı

**Prezident İlham Əliyev Kürdəmir rayonunda “ASAN Xidmət” mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

ONA-nın xəbərinə görə, sərəncamla Kürdəmir rayonunda “ASAN Xidmət” mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 20 145 000 (iyirmi milyon yüz qırx beş min) manatı Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılıb.

Maliyyə Nazirliyinə bu sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

## “Səfirlik Misirdə saxlanılan azərbaycanlı dənizçi ilə bağlı mütəmadi təmasdadır” - XİN

**“Azərbaycanın Qahirədəki səfirliyi Misirdə saxlanılan ”Sea Shark" tankerinin ekipaj üzvü olan azərbaycanlının məsələsini diqqətdə saxlayır".**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən “Report”a verilən məlumata görə, Azərbaycanın səfirliyi vətəndaşımızın qanuni hüquqlarını təmin etmək üçün Misir tərəfi ilə mütəmadi olaraq təmasdadır.

“Vətəndaşlarımızın hüquqlarının qorunması məsələsi həmişə diqqət mərkəzindədir”, - XİN-in mətbuat xidmətindən bildirilib.

Qeyd edək ki, Misirdə saxlanılan “Sea Shark” tankerinin göyərtəsində 31 nəfər - 17 Ukrayna, 1 Azərbaycan vətəndaşı, eləcə də Filippin, Şri-Lanka və Hindistan vətəndaşları olub. Vəkillərin sözlərinə görə, Misir səlahiyyətlilərinin yaxın bir neçə gün ərzində ekipaj üzvlərini azad edəcəyi, amma ölkənin ərazi sularına qanunsuz girişə görə 56 milyon dollar məbləğində cərimə ödənilənə qədər yüklü tankeri saxlayacağı gözlənilir.

## “Donbas məsələsini həll edəcəyi təqdirdə Putin Zelenskini təbrik edəcək” - Kreml

**“Rusiya prezidenti Vladimir Putin Donbasda münaqişənin həlli istiqamətində ilk müvəffəqiyyət əldə edəcəyi və Rusiya-Ukrayna münasibətlərini normallaşdıracağı təqdirdə Ukrayna prezidenti Vladimir Zelenskini təbrik edəcək”.**

ONA-nın TASS-a istinadən verdiyi xəbərə görə, bu barədə Kremlin sözçüsü Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib.

“Prezident Putin cənub-şərqi Ukraynadakı daxili münaqişənin həllindəki ilk və Rusiya-Ukrayna münasibətlərinin normallaşmasındakı müvəffəqiyyətinə görə Zelenskini təbrik edəcək ”, - deyə D.Peskov bildirib.

Qeyd edək ki, dünən inauqurasiya mərasimi keçirilən Ukraynanın yeni prezidenti Vladimir Zelenski prezidentliyi dövründə Donbas məsələsini həll etməyə çalışacağını bəyan edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Səfər Mehdiyev “Qırmızı Körpü”nün rəisini işdən çıxardı- şikayətə görə



**Gömrük Komitəsi bəzi kütləvi informasiya vasitələrində Türkiyədə müvəqqəti yaşayaraq ölkəmizə qayıdan Azərbaycan vətəndaşı Xanım Şabanovanın özü ilə gətirdiyi ev əşyalarının Gürcüstanla sərhəddə yerləşən “Qırmızı Körpü” gömrük postunda saxlanılması və həmin şəxsdən gömrük ödənişlərinin tələb olunmasına dair yayılan məlumatlara aydınlıq gətirib.**

Musavat.com-a daxil olan məlumatda qeyd edilir ki, Xanım Şabanovanın ölkəyə qayıtdığı tarixdə “Qırmız Körpü” gömrük postunun rəisi işləyən şəxs yuxarıda qeyd olunan hadisə ictimailəşdirilmədən öncə tutduğu vəzifədən azad olunub.

Komitənin aidiyyəti qurumları tərəfindən aparılan araşdırma nəticəsində vətəndaşın ölkə ərazisinə gətirdiyi malların ev əşyalarının gömrük rəsmiləşdirilməsi zamanı qanunvericiliyin pozulması halları qeydə alındığından rəsmiləşdirilməni həyata keçirən gömrük əməkdaşları komitə sədrinin əmrinə əsasən inzibati məsuliyyətə cəlb edilərək cəzalandırılıblar və vətəndaşın əşyalarının özünə qaytarılması haqqında qərar verilib.

Dövlət Gömrük Komitəsi qanunvericiliyin pozulmasının qarşısının alınmasında göstərdiyi prinsipial vətəndaşlıq mövqeyinə görə Xanım Şabanovaya təşəkkürünü bildirib.

❑ **Musavat.com**



Vüsal İsayev

## “Ədalət mühakiməsinin effektivliyi təmin ediləcək, məhkəmələrin nüfuzu artırılacaq” - PA rəsmisi

**“Azərbaycanda bütün sahələrdə islahatlar davam edirilir”.**

ONA-nın xəbərinə görə, bunu Prezident Administrasiyasının (PA) Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi zamanı deyib.

“Məhkəmə-hüquq sahəsində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Prezidentinin Fərmanına toxunan sektor müdiri bildirib ki, fərmanda əsas istiqamətlərdən biri də məhz sahibkarlığın inkişafına şərait yaratmaqdır.

Onun sözlərinə görə, məhkəmə-hüquq sistemində davam edən islahatların dəstəklənməsinə ehtiyac var: “Bütövlükdə fərmanın əsas məqsədi ədalət mühakiməsinin effektivliyinin təmin edilməsi və məhkəmələrin nüfuzunun artırılmasıdır”.

Fərmanda hər bir sahə üzrə konkret tapşırıqların müəyyənləşdirildiyini vurğulayan V. İsayev qeyd edib ki, cinayət mühakiməsinin icraatı istiqamətində qanunvericiliyin humanistləşdirilməsi davam etdiriləcək.

## “Azərbaycan diasporuna dini zəmində təhdidlər var” - Dövlət Komitəsi

**Mayın 20-də Şəmkir rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şəmkir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Dini təhsil, dini tərbiyə və dünyəvilik” mövzusunda tədbir keçirilib.**

Dövlət Komitəsindən ONA-ya verilən məlumata görə, rayon icra hakimiyyəti başçısının müavini Fəxrəddin Vəliyev ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması istiqamətində DQİDK tərəfindən görülən işləri yüksək qiymətləndirib.

Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılovun sözlərinə görə, respublikada din sahəsində sabitlik mövcuddur: “Azərbaycan konfessiyalar və məzhəblərarası münasibətlərin tənzimlənməsi baxımından nümunəvidir”.

Dini zəmində xurafat meyllərinin gücləndirilməsi cəhdlərindən, Azərbaycan diasporuna dini zəmində yönəlik təhdidlərdən də bəhs edən G. İsmayılov qeyd edib ki, cəmiyyətdəki xurafat elementləri dinlə əlaqələndirilsə də, əslində dinə heç bir aidiyyəti yoxdur: “İslamda elm öyrənmək, təhsil almaq kişi və qadın fərqi qoyulmadan bütün insanlara vacib buyurulub".



## Azərbaycan Çinə nar ixrac edəcək

**Çinin Şanxay şəhərində təşkil edilmiş “Sial China 2019" beynəlxalq sərgisində İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fonunun (Azpromo) təşkilatçılığı ilə qida, şərab və digər spirtli içkilərin istehsalı sahəsində fəaliyyət göstərən 19 Azərbaycan şirkətinin məhsulları ”Made in Azerbaijan" vahid ölkə stendində təqdim olunub.**

ONA-nın Azərbaycan İqtisadiyyat Nazirliyinə istinadən verdiyi məlumata görə, sərgi çərçivəsində keçirilmiş görüşlərdə ixracının genişləndirilməsinə dair müzakirələr aparılıb, bir sıra məhsulların ixracına dair razılığa gəlinib.

Belə ki, “Agro-Azərinvest” şirkəti nar şərabının, “Naiqin Ko Tovuz Baltiya” şirkəti nar şərabının və nar şirəsinin ixracına dair razılıq əldə edib, “Az-Granata” şirkəti isə şərab məhsullarının ixracına dair danışıqlar aparıb.

Bundan əlavə, Azərbaycanın “Aspi-Agro”, “Merit Brand”, “Caspian Coast Winery and Vineyards”, “Abşeron Şərab”, “Mərəndi”, “Naiqin Ko Tovuz Baltiya”, “Aznar”, “İsmayıllı Şərab 2", ”Cəlilabad Şərab-2" və “Şərq Ulduzu” şirkətlərinin istehsal etdikləri məhsullar Çin, Tayvan, Hong Kong, İsrail və digər ölkələrdən olan idxalçılar tərəfindən maraqla qarşılanıb, ixraca dair danışıqlar aparılıb.

Azərbaycanın qida məhsulları istehsalı ilə məşğul olan “Crispa Snacks”, “Camal LTD”, “BakuKonserv” şirkətləri məhsullarının Çin, Monqolustan, Sinqapur, Litvaya ixracına dair müzakirələr aparıblar.

Qeyd edək ki, “Made in Azerbaijan” vahid ölkə stendi “Sial China 2019" beynəlxalq sərgisində ən çox ziyarət edilən stendlərdən olub və Azərbaycan məhsullarına böyük maraq göstərilib.

## Kürdəmirdə dəhşət - ata avtomobillə 2 yaşlı qızını vurub öldürdü

**Kürdəmir rayonunda ölümlə nəticələnən bədbəxt hadisə baş verib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən ONA-ya verilən xəbərə görə, Kürdəmir rayonunun Xırdapay kənd sakini N.Nərimanov evinin həyətindən “Mercedes” markalı avtomobillə çıxarkən darvazanın yaxınlığında dayanmış qızı, 2 yaşlı Zəhranı vurub. Nəticədə uşaq hadisə yerində ölüb.

Faktla bağlı Kürdəmir Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Eyyub Yaqubovun konserti ətrafında qalmaqal böyüyür - üzr istəmə tələbi

## İsveçdə yaşayan Emil Mirzəyev: "Həmin şəxs tədbirdə iştirak edənlərdən üzr istəsin"

**Xalq artisti Eyyub Yaqubovun İsveçdə Laçının işğal günündə konsert verdiyi barədə səslənən iddialarla əlaqədar "Yeni Müsavat"ın 19 may sayında yazı gedib. Həmin məqalədə konsert tədbirinin təşkilatçısı, Vahid Azərbaycan Dərnəyinin rəhbəri Ayə Coşqun və İsveçdə siyasi mühacir kimi yaşayan Kənan Hacıəkbəroğlunun fikirləri gedib.**

A.Coşqun iddiaları yalanyaraq, Azərbaycan Xalq Cümhuriyyətinin 101 illiyi ilə əlaqədar tədbir təşkil etdiklərini və bunu da mayın 17-də deyil, 18-də keçirdiklərini söyləyib. Eyni zamanda o, E.Yaqubov səhnədə oxuyan zaman videokadrlarda erməni bayrağının keçməsinə də aydınlıq gətirərək, bunun təxribat olduğunu bildirib. Bununla bağlı hətta bir sıra faktlar da açıqlayıb. Ayə Coşğun bildirib ki, söhbət konsertdən öncə nümayiş olunan filmdən gedir. Həmin filmdə bir sıra ölkələrlə yanaşı, Ermənistan bayrağının da görüntüsü var.

K.Hacıəkbəroğlu isə tədbirin keçirilməsinə sərt etirazını bildirərək, orada iştirak edənlərin vətənpərvər olmadığını qeyd edib. Siyasi mühacir daha ciddi ittiham səsləndirərək, tədbirin təşkilatçılarının pul qazanmaq üçün belə konsert təşkil etdiklərini bildirib.



Emil Mirzəyev

**K.Hacıəkbəroğlunun dedikləri ilə bağlı İsveç Azərbaycanlıları Konqresinin sədri Emil Mirzəyev redaksiyamıza zəng edərək öz fikirlərini bildirib. O, musavat.com-a açıqlamasında Kənan Hacıəkbəroğlunun dediyi sözlərə görə üzr istəməsini tələb edib:** "Mayın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin 101 illiyi ilə bağlı tədbir olub. Biz də o tədbirdə iştirak etmişik. Eyni zamanda Azərbaycanın İsveçdəki səfirliyində çalışanlar, koordinasiya şurasının üzvləri və digər şəxslər iştirak ediblər. Biz məqaləni oxuyandan sonra özümüzü təhqir olunmuşuq hesab etdik. O adam sizin qəzetə deyir ki, tədbirdə iştirak edənlər vətənpərvər deyillər. Bu ifadə düzgün deyil. Azərbaycandan çıxan bizim kimi şəxslər elə adamlardan daha çox vətənpərvər olurlar. Vətənin sevgisini, vətənə olan qayğıları burada hiss edirik. Nə qədər pafoslu olsa da, ürəkdən deyirəm ki, biz azərbaycanlıyıq, burada ölkəmizin mövqelərindən çıxış etməliyik, onun maraqlarını hər yerdə qorumalıyıq. Damarlarımızda azərbaycanlı qanı axır. Bizim üçün öncə Azərbaycan, ondan sonra İsveç gələ bilər. Bir daha deyirəm ki, tədbir 17 mayda deyil, ayın 18-də olub. Orada çox hörmətli şəxslər iştirak ediblər. Tədbirə Danimarikadan, Hollandiyadan diaspora təmsilçiləri qatılıb. Çox istərdim ki, həmin şəxs tədbirdə iştirak edənlərdən üzr istəsin. Digər tərəfdən, məqalədə biznes məsələsini qaldırır ki, guya oradan pul qazanırıq. Bununla bağlı əlimdə kifayət qədər sübutlar var və bunu Ayə Coşqun faktlarla sizə təqdim edə bilər. Eyyub müəllim bu tədbirdə pulsuz oxumaq üçün gəlib. O, Azərbaycanı tanıtdırmaq üçün bura səfər edib. Ayə xanımın bu tədbirdən pul qazanmaq niyyəti ola bilməz".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Xanım rektor "müxalifətçilərin üzünə tüpürün" deyibmi - rəsmi açıqlama

## Bakı Slavyan Universiteti: "İqtidar-müxalifət mövqeyində durmasından asılı olmayaraq, bütün vətəndaşlara sayğı göstərmək borcumuzdur"

**"Bakı Slavyan Universitetinin rektoru Nurlana Əliyeva tələbələr arasında keçirilən tədbirlərin birində deyib ki, harada müxalif düşüncəli adam gördünüz tüpürün üzünə". Bu xəbəri jurnalist Gülzar Məmmədli feysbuk səhifəsində yazıb. Onun bu məlumatı sürətlə sosial şəbəkələrin Azərbaycan seqmentində yayılıb və bir çoxları da paylaşıb.**

G.Məmmədli bildirib ki, BSU rektoru tələbələri davamlı olaraq xoşagəlməz ifadələrə məruz qoyub.

BSU rektoru bir neçə il qabaq isə universitetin giriş hissəsinin fasadında olan 46 illik mozaikanın sökülməsi barədə göstəriş verməsi ilə gündəmə gəlmişdi. Bu söküntü etirazla qarşılanmışdı.

Sonra həmin mozaika yerinə bərpa edildi. N.Əliyevanın müxalifətçilər haqda dediyinə gəlincə, BSU-nun prorektoru Əbülfəz Nağıyev "Yeni Müsavat"a açıqlamasında deyilənlərin cəfəngiyyat olduğunu söylədi: "Sizcə, Nurlana xanım belə şey söyləyərmi? Tamamilə yalandır".


Nurlana Əliyeva

**BSU-nun mətbuat xidmətindən isə "Yeni Müsavat"a yazılı açıqlamada bildirildi ki, sosial şəbəkələrdə gedən informasiya böhtandır:** "Dünəndən sosial şəbəkələrdə Bakı Slavyan Universitetinin rektoru, professor, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva ilə bağlı ağlasığmaz ifadə və fikirlər səsləndirilir. Səbəb kimi mayın 16-da rektorun universitetin akt zalında tələbələrlə görüş zamanı guya müxalifətin ünvanına təhqiramiz ifadələr səsləndirməsi göstərilir.

İlk növbədə onu qeyd edək ki, bir azərbaycanlı xanım, ağbirçək ana olan Nurlana Əliyevanın tələbələrlə hər görüşü daha çox övlad-valideyn münasibətləri çərçivəsində, səmimiyyət və inam müstəvisində baş tutur.

Bu görüşlərdə milli-mənəvi dəyərlər, əxlaq, etika, vətənpərvərlik, ədalət, düzlük, insanpərvərlik önə çəkilir. Ümumiyyətlə, 30 ildən artıq ictimai-siyasi fəaliyyətlə məşğul olan, xalqını sevən, onunla ünsiyyətdən qürur duyan xanım professorun iclasda siyasi əqidəsinə, dünyagörüşünə görə kimlərisə təhqir etməsi, yaxud kimlərinsə ünvanına aşağılayıcı ifadələr işlətməsi mümkünsüz bir işdir".

**Açıqlamada bildirilir ki, N.Əliyeva indiyədək heç bir vaxt Azərbaycan vətəndaşları arasında fərq qoymayıb, sosial mənşəyindən, milli-etnik mənsubiyyətindən, iqtidar və yaxud müxalifət düşərgəsində təmsil olunmasından asılı olmayaraq bütün insanlara bu torpağın, yurdun bərabərhüquqlu vətəndaşları kimi baxıb:**

"Əslində Nurlana Əliyevanın BSU-ya gəldiyi ilk gündən məqsədi gənclərin patriotizm, milli-vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan xalqının tarixi ənənələrinin, mədəniyyətinin, ədəbiyyatının, bütövlükdə mənəvi dəyərlərinin gənclərə ötürülməsi olub.

Qapısı hər zaman insanların üzünə açıq olan rektor hər bir insanla səmimi dialoqa girəndə, tələbələrə bir ağbirçək ana kimi öyüd-nəsihət verəndə ilk növbədə əxlaq və etik normalar, milli-mənəvi dəyərlər prizmasından çıxış edir.

Təbii ki, belə bir ziyalı xanımın, pedaqoqun, tanınmış dövlət xadiminin siyasi baxışlarına, ideoloji düşüncəsinə görə kimlərisə təhqir etməsi, yaxud onlar haqqında nalayiq ifadələr işlətməsi barədə informasiyalar şər və böhtandan başqa bir şey ola bilməz.

Təkrar edirik, iqtidar-müxalifət mövqeyində durmasından asılı olmayaraq bu ölkənin bütün vətəndaşlarına sayğı göstərmək bizim borcumuzdur".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**


Natiq Muxtarlı

# Azərbaycanda türk futbol klublarının sevilməsinin səbəbləri

## Natiq Muxtarlı: "Müşahidəmə görə, ölkəmizdə "Qalatasaray" azarkeşləri daha çoxdur"

**Mayın 19-da Türkiyənin "Qalatasaray" klubu 22-ci dəfə ölkə çempionu oldu. "Cim-bom"un bu çempionluğu qardaş ölkədə olduğu kimi Azərbaycanda da böyük coşqu ilə qarşılandı. Sanki ölkəmizin hər hansı bir klubunun azarkeşləri çempionluq sevinci yaşayırdılar.**

Təsadüfi deyil ki, "Qalatasaray"la eyni gündə "Qəbələ" də Azərbaycan kubokunun qalibi oldu. Lakin bu barədə hər hansı bir coşqunun şahidi olmadıq. Ara-sıra sosial şəbəkələrdə statuslara rast gəldik. Bütün bunlar haqlı olaraq çoxsaylı müzakirələrə yol açır. Bununla bağlı ən müxtəlif mülahizələr səsləndirilir.

Onu da qeyd edək ki, Türkiyədə "Aslan"ların çempionluğu Azərbaycanda qardaş ölkənin üç böyük klubundan - "Fənərbaxça", "Qalatasaray" və "Beşiktaş"dan hansının fanatının daha çox olduğunu bir daha gündəmə gətirib. Doğrudur, əksər düşüncələrdə "Fənərbaxça" və "Qalatasaray"ın azarkeşlərinin çox olduğu yer alır. Bu da daha çox bu iki klubun əzəli və barışmaq rəqib olmalarından, Türkiyədə və Avropada ciddi uğur qazanmalarından irəli gəlir.

**Komanda.az saytının redaktoru Natiq Muxtarlı türk klublarının ölkəmizdə populyar olmalarının səbəblərini bu cür sadaladı:** "Ümumiyyətlə, futbol elə bir oyundur ki, onun sərhədi yoxdur. Bütün dünyada azarkeşlər yaşadıqları ölkələrdən asılı olmayaraq, həm də "Barselona", "Real", "Yuventus", "Bavariya", "Mançester Yunayted" azarkeşi ola bilərlər. Bu gün Avropanın nəhəng klubları Afrikada, Asiyada, Amerikada azarkeş "ovu"na xeyli vəsait xərcləyirlər. Və adlı-sanlı klubların dünyanın başqa nöqtələrində milyonlarla fanatları var. Azərbaycan da futbol dünyasının kiçik bir parçasıdır. Bəlkə də futbol yeganə idman növüdür ki, burda hamı tolerant ola bilir. Yapon "Mançester Yunayted"ə, çinli "Barselona"ya, ekvadorlu "Bavariya"ya, koreyalı "Real"a azarkeşlik edir.

Bu baxımdan yanaşsaq, azərbaycanlı azarkeşlərin Türkiyə klublarına fanatlıq etmələri çox təbiidir. Azərbaycan yenicə müstəqillik əldə etdikdən sonra bizim azarkeşlər Türkiyə klublarına tərəf üz tutdular. Bunun nəyi pisdir ki? Bu, həm də uzun illərdir SSRİ (əslində Rusiya) klublarına azarkeşlik etmiş fanatların "rus buxovu"ndan qurtulması üçün yaxşı vasitə oldu. Yeni gənclik də işığın, sevginin Rusiya tərəfdə yox, Türkiyə tərəfdə olduğunun fərqinə vardı. Futbol həm də bu yöndə müstəqil Azərbaycana yardım etdi. Müşahidəmə görə, Azərbaycanda "Qalatasaray" azarkeşləri daha çoxdur. Bunun da bəlli səbəbləri var. Çünki 90-cı illərin sonları, 2000-ci illərin əvvəllərində "Qalatasaray" Avropada böyük uğur qazandı. Bu, həmin ərəfə idi ki, sovet klublarına "sevgi"dən imtina edən azərbaycanlı fanatlar özlərinə yeni klublar axtarırdılar. "Qalatasaray"ın UEFA kubokunu, Avropa Superkubokunu qazanması bir çoxlarının seçiminə təsir etdi. Məncə, bu sıralamada 2-ci pillədə "Fənərbaxça" qərarlaşıb. "Beşiktaş" isə 3-cü yerdədir".

**İdman jurnalisti fikirlərinə bu cür davam etdi:** "Bəli, mayın 19-da Türkiyədə çempion bəlli oldu, Azərbaycanda isə kubokun qalibi bilindi. Ancaq etiraf edək ki, azərbaycanlı azarkeşlərin bütün diqqəti Türkiyəyə yönəlmişdi. Azərbaycan kubokunun qalibinin hansı komanda olacağı fanatları o qədər də maraqlandırmırdı. Bunun çox ciddi səbəbləri var. Əsas səbəb isə Azərbaycanda əsl futbolun olmamağıdır. Ölkəmizdə futbol çox populyardır. Ancaq Azərbaycan futbolu populyar deyil. Sanki bizdə bütün dünyadan fərqli futbol oynayırlar. Azarkeşlərin xoşuna gələməyən futbol. Bunun səbəbi isə futbola rəhbərlik edən qurumdan - AFFA-dan, klublardan qaynaqlanır. Azərbaycan futbolunda sağlam idarəetmə sistemi, sağlam rəqabət mövcud deyil. Az qala hər kəs o fikirdədir ki, bütün oyunların nəticələri meydanda yox, AFFA-nın divarları arasında müəyyənləşir. Belə düşüncə hakimdir. Ancaq AFFA rəhbərliyi, klub funksionerləri bu düşüncəni dağıtmaq üçün iş görmürlər. Əksinə, onların atdıqları bütün addımlar, verdikləri bütün qərarlar belə düşüncənin möhkəmlənməsinə şərait yaradır. Elə götürək Azərbaycan kubokunun final oyununun Naxçıvanda keçirilməsi ilə bağlı qərarın verilməsinə. Bu addımla bütün azarkeşləri final oyununu stadiondan izləmək şansından məhrum etdilər. Hətta idman mətbuatının nümayəndələri də Naxçıvana gedə bilmədilər. Belə olan halda, Azərbaycan futboluna maraq niyə olsun ki? Azərbaycanda futbola böyük maraq var. Amma təəssüf ki, Azərbaycan futboluna maraq yoxdur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**İyunun 24-də Londonun “Westminster Magistrates” məhkəməsində Beynəlxalq Bankın keçmiş sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın işi üzrə proses keçiriləcək. Bu haqda məhkəmə müvafiq qərarı ötən ilin noyabrında verib. Zamirə Hacıyeva Britaniyada ilk dəfə tətbiq edilən “İzahedilməz Sərvət Sərəncamı” (UWO) çərçivəsində bu ölkə ərazisindəki sərvətini hansı gəlirlər hesabına alındığını açıqlamalıdır.**

# Zamirə Hacıyeva üçün gerisayım başlayır - son 1 ay

## Sabiq bankirin həyat yoldaşının Londondan Lüksemburqa köçmə ehtimalı var; Azərbaycana gətirilərsə, onu 12 illik həbs cəzası gözləyir...

Məhkəmənin qərarına görə, bunun üçün Zamirə Hacıyevanın 2019-cu il iyunun 24-dən 28-nə qədər vaxtı var. Sabiq bankirin həyat yoldaşı ayrılan 4 gün ərzində məhkəməyə gəlməli, Britaniya ərazisindəki əmlakların alınmasına sərf olunan vəsaitlərin hansı mənbədən əldə edilməsi haqda əsaslı izahat verməlidir. Zamirə Hacıyeva və vəkili Hüqo Keyt London məhkəməsinin hakimlərini mal-mülkün leqal biznesdən əldə olunan gəlirlərlə alındığına inandırmalıdırlar. Əks halda, Hacıyevlərin illərlə Londona transfer etdikləri milyonlara alınan mal-mülk Britaniya hökumətinin sərəncamına keçə bilər.

Hazırda Britaniyanın Milli Kriminalla Mübarizə Agentliyi (National Crime Agency, NCA) qanunsuz gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə qanunu çərçivəsində Zamirə Hacıyevanın 10 milyonlarla dollarlıq aktivlərinə həbs qoyub. Məlum olub ki, 7 il əvvəl Britaniyanın Virgin adalarında yerləşən bir şirkət vasitəsilə Londonun qərbində bir evə 11.5 milyon funt (15.13 milyon dollar) ödəyib. Ali Məhkəmə dinləmələrində evin sahiblərinin Zamirə Hacıyeva və onun həyat yoldaşı Cahangir Hacıyev olduqları aşkara çıxıb. 2013-cü ildə Zamirə Hacıyevanın nəzarət etdiyi başqa bir şirkət Berkshire qraflığında, Ascot kəndinin yaxınlığında təmtəraqlı qolf kursu və əmlakını almaq üçün 10 milyon funt (13.15 milyon dollar) xərcləyib. O, son 10 il ərzində “Harrods”da 16 milyon funt (21.04 milyon dollar) xərcləyib. Bu, gündə 4000 funtdan çox xərcləmə deməkdir. Rəsmi məlumatlar Hacıyevlərin “Harrods”un bahalı avtomobil parkında 2 xüsusi yerə sahib olduqlarını və Zamirə Hacıyevanın 42 milyon funta (55.24 milyon dollar) “Gulfstream G550" jet təyyarəsini aldığını da ortaya çıxarıb. Zamirə Hacıyevanın müsadirə olunmuş əşyaları arasında 20 min funt-sterlinq dəyərində mirvari və 100 min funtluq ”Boucheron" sapfir boyunbağılar, 20 min funtluq “Magic Alhambra” bilərziyi var.

Hacıyevlərin başı qalda ikən daha bir ciddi problemlə üz-üzədirlər. Zamirə Hacıyeva illərdir Böyük Britaniyada bu ölkənin Daxili İşlər Nazirliyinin varlı sahibkarlar üçün nəzərdə tutulmuş vizası ilə yaşayır. Britaniyada əcnəbi sahibkarlar Tier 1 (Entrepreneur) vizasını almaq üçün ölkəyə 200 min funt sterlinq investisiya qoymalıdırlar. Bundan sonra ilkin olaraq 3 il 4 aylıq viza verilir. Müddət başa çatdıqdan sonra ehtiyac yaranarsa, vizanı daha 2 il müddətinə uzatmaq mümkündür. Bu viza ilə sahibkar 180 gün ərzində ölkənin hüdudlarından kənarda da yaşaya bilər. 3 il sonra isə bu, sahibkara ölkədə daim yaşamaq hüququ da qazandıra bilər. Amma bunun da şərtləri var. Bunun üçün sahibkar 10 yeni daimi iş yeri, 20 isə daimi olmayan iş yeri açmalıdır. 3 il sonra daimi yaşamaq hüququ almaq üçün daha bir variant var. Bu, o halda mümkündür ki,



şirkətin 3 illik gəliri 5 milyon funt-sterlinqdən az olmamalıdır. Tier 1 vizası almış sahibkar öz ailəsini də Britaniyaya gətirmək hüququna malikdir. Bunun üçün onların maliyyəşəcəyinə təminat vermək kifayətdir.

Hazırda Zamirə Hacıyevanın vizasının müddəti bitmək üzrədir. Ötən ilin sonunda dünyanın aparıcı nəşrləri Britaniyada bədxərcliyinə görə böyük qalmaqala səbəb olmuş Zamirə Hacıyevadan yazırdılar. Belə bir səs-küydən sonra vizasının uzadılaraq Londonda qalması mümkünsüz kimi görünür. Bu halda, Z.Hacıyeva Britaniyanı tərk etmək məcburiyyətində qalacaq. Barəsində axtarış qərarı olan Zamirə Hacıyevanın hansı ölkəyə sığına biləcəyi maraq doğurur. Britaniyadan çıxarılacağı təqdirdə Zamirə Hacıyevanın Lüksemburqa sığına biləcəyi ehtimalı var. Belə məlumatlar dolaşır ki, onun Avropa İttifaqının 3 paytaxtından biri olan Lüksemburqa üz tuta bilməsini şərtləndirən əsas amil kürəkəni Anar Mahmudovun orada biznesinin olmasıdır. Zamirə Hacıyeva orada yaxın qohumlarının qonağı kimi uzun müddət yaşaya bilər.

Avropa İttifaqının ən yüksək ədliyyə hakimiyyəti olan Avropa Ədalət Məhkəməsi burada yerləşir. Anar Mahmudov Eldar Mahmudovun oğludur. O, Zamirə Hacıyevanın qızı Leyla ilə 2012-ci ildə ailə həyatı qurub. Azərbaycanda, Türkiyədə, İspaniyada və Lüksemburqda şirkətləri var. Anar Mahmudovun Bakıda təsis edilən “Caspian Crystal Holdinq”ə dəbdəbəli restoranlar, bahalı içki mağazaları və brend avtomobillər şəbəkəsi daxildir. Onun bir neçə tikinti şirkəti də var.

Sabiq bankirin həyat yoldaşı Azərbaycana ekstradisiya olunsa, onu uzunmüddətli həbs cəzası gözləyir. 2016-cı ilin iyununda Nərimanov Rayon Məhkəməsi dələduzluq, vəzifə səlahiyyətlərindən sui-istifadə, külli miqdarda dövlət əmlakını mənimsəməkdə təqsirləndirilərək həbs edilən Azərbaycan Beynəlxalq Bankının (ABB) İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevin həyat yoldaşı Zamirə Hacıyevanın barəsində həbs-qətimkan tədbiri seçib və onun axtarışa verilməsi barədə qərar çıxarıb.

Qərar çıxarılandan sonra Zamirə Hacıyevanın Azərbaycana ekstradisiyası üçün Londona istintaq qrupu göndərilmişdi. Lakin həmin vaxt “İzahedilməz Sərvət Sərəncamı” qəbul edilmədiyindən, sabiq bankirin həyat yoldaşının varlı sahibkarlar üçün nəzərdə tutulmuş vizasının qüvvədə olması səbəbi ilə ekstradisiya baş tutmamışdı. Artıq şərtlər dəyişib və Zamirə Hacıyeva gələn ay Azərbaycana gətirilə bilər. Bunun üçün hüquqi cəhətdən hər hansı əngəl qalmayıb.

Z.Hacıyevaya qarşı Azərbaycanda Cinayət Məcəlləsinin 179.3.1-ci (mənimsəmə və ya israf etmə, mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 179.3.2-ci (Mənimsəmə və ya israf etmə külli miqdarda törədildikdə) maddələri üzrə ittiham irəli sürülüb. İttihamlar təsdiqini taparsa, Zamirə Hacıyeva Azərbaycanda əmlakı müsadirə olunmaqla və ya olunmamaqla 7 ildən 12 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırıla bilər.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# “Sovetski”nin bitməyən kompensasiya davası

## Sakinlər hesab edirlər ki, kompensasiyanın məbləği 2 min manata qaldırılmalıdır

**Bakının “Sovetski” kimi tanınan məhəlləsində yenidən sakinlər narazılıq edirlər. Uzun müddətdir söküntü prosesinin davam etdiyi məhəllədə, yenə də ənənəvi kompensasiya problemi yaşanır. Sakinlər bildirirlər ki, onlara verilən kompesasiyanın miqdarı çox aşağıdır. Rəsmilər isə belə düşünmürlər.**

Mayın 18-də Bakıda ərazidə yerləşən evlərin sakinləri aksiya keçirməyə cəhd göstəriblər. Sakinlər evlərin sökülməsinə görə onlara verilən kompensasiyasının məbləğindən narazıdırlar.

Onlar Yasamal Rayon İcra Hakimiyyətinin başçısının gəlməsini tələb ediblər və vurğulayıblar ki, evlərin 1 kvadratmetrinə görə 1500 manat kompensasiya azdır: “Biz Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun qəbulunda da olmuşuq. Lakin müraciətimizə baxmırlar. Evlərimiz balacadır. 1 kvadratmetrinə görə 1500 manat çox azdır. Demək olar ki, heç nədir. 30 min manat pulla biz nə ala bilərik? Kimə müraciət edirik, deyirlər dövlət əhəmiyyətli yerdir, çox pul verə bilmirik” - deyə, narazı sakinlər bildiriblər.

Əraziyə polis əməkdaşları cəlb edilib və aksiya keçirənlər sakitləşdirilib.



**“Sovetski” sakini Rəsul Əmirov “Yeni Müsavat”a bildirib ki, illərdir ərazidə söküntü işləri gedir. O söyləyib ki, toz əlindən ərazidə qala bilmirlər, kompensasiya az olduğu üçün isə köçmək istəmirlər:** “Burada 2014-cü ildən söküntü işləri gedir. Hər il elan edirlər ki, söküntünün filan mərhələsi başladı. Ancaq illər dəyişsə də, verilən kompensasiyanın miqdarı yerində qalıb. Nəzərə almırlar ki, bu illər ərzində tikinti materialları bahalaşıb. Bu gün Qaradağ daşının qiyməti 50 qəpiyə yaxındır. İllər öncə daşın qiyməti heç 40 qəpik deyildi. Eləcə də bu gün sement 7 manatdır. Əvvəllər 5 manat 50 qəpik idi. Taxta iki dəfə bahalaşıb. Dəmir də bahadır. Bəs, bu qədər bahalıqla şəhərin mərkəzində olan evin kvadratına nə üçün 1500 manat verilir? Narazılıq edənlər evlərinin kvadratı az olanlardır. Çünki məsələn, 20 kvadrat evi olan adama bu pul sərf eləmirsə, 100 kvadrat evi olana sərf edir. Ona görə də xahiş edirik ki, kompensasiya məsələsinə yenidən baxılsın və camaatı çətin duruma salmasınlar. Onsuz da bu ərazini illərdir ki, çəpərləyiblər. Camaat sanki türmədə yaşayır. Bir yandan toz, digər yandan də səs-küy... Xəstəsi olan ailələrin çoxu kirayə mənzillərə çıxıb. Çünki artıq ərazidə yaşamaq mümkün deyil. Səhər evi təmizləyirlər, axşam tozun içərisində olur. Bütün günü tikintidən toz qalxır. Camaatın da narazılığı bundandır”.

Məlumat üçün qeyd edək ki, “Sovetski” deyilən ərazisinin sökülməsinə 2014-cü ildə başlanıb. 26 hektardan çox sahəni əhatə edən ərazidə 4500-ə yaxın yaşayış və qeyri yaşayış obyektləri sakinlərlə əldə edilmiş razılığa əsasən satın alınıb və sökülüb. “Sovetski” ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb.

2018-ci ildə “Sovetski”də söküntünün ikinci dalğası başlayıb. İkinci mərhələdə isə 1920 evin söküldüyü bildirilir. Bu zaman söküntü işlərinin təqribən 13 hektar ərazini əhatə etdiyi qeyd olunur. “Sovetski”də birinci mərhələdə 40 hektar ərazi boşaldılıb. 6 hektar ərazidə 7,1 kilometr uzunluğunda asfalt-beton örtüyünün sahəsi 87,6 min kvadratmetr təşkil edən Nəriman Nərimanov, Abdulla Şaiq, Balababa Məcidov, Mirzağa Əliyev və Füzuli küçələrinin yenidən qurulması başa çatdırılıb. Sökülən evlərə görə sakinlərə hər kvadrata 1500 manat olmaqla kompensasiya ödənilib.

Qeyd edək ki, hər iki mərhələdə kompensasiyanın məbləği ilə razılaşmayan ailələr də olub. Onlar müxtəlif dövrlərdə aksiyalar da keçiriblər. Bununla bağlı bir sıra şikayətlər, hətta Avropa İnsan Hüquqları Məhkəməsinə də göndərilib. Sakinlər ən azı hər kvadrat üçün 2 min manat istəyirlər.

**Bu ilin mart ayında ONA-nın sorğusuna əsasən Nazirlər Kabineti məlumat yaydı ki, verilən kompensasiya məbləğində hər hansı bir dəyişiklik nəzərdə tutulmayıb:**

“Nazirlər Kabinetinin 2018-ci il fəaliyyəti haqqında hesabatda bildirilib ki, Bakı şəhərinin Yasamal rayonu - Nabat Aşurbəyova, Süleyman Tağızadə, Abdulla Şaiq və Çingiz Mustafayev küçələri arasındakı ərazidə 1130 ədəd, Nəriman Nərimanov prospekti, İsmayıl bəy Qutqaşınlı, Bəşir Səfəroğlu və Mirzəağa Əliyev küçələri arasındakı ərazidə 800 ədəd, ümumilikdə 2010 yaşayış və qeyri-yaşayış obyektləri Bakı şəhərinin Baş Planına uyğun olaraq, dövlət əhəmiyyətli kommunikasiya xətlərinin çəkilməsi məqsədilə dövlət ehtiyacları üçün satın alınır”.

Müstəqil qiymətləndirmə ekspertlərinin rəyinə əsasən, əlavələr də nəzərə alınmaqla mənzilin əsas və köməkçi sahələrinin hər kvadratmetri üçün son hədd 1500 manat, digər sahələr üzrə isə bir kvadratmetr üçün onların konstruksiyasından və təmir səviyyəsindən asılı olaraq 300-1200 manat arasında qiymət təklif edilir. Satınalma “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Qanuna uyğun həyata keçirilir", - hesabatda qeyd olunub.

Onu da qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov demişdi ki, “Sovetski” ərazisinin yenidən qurulması ilə bağlı xüsusi plan hazırlanır. Bu planın nədən ibarət olması isə hələ ki məlum deyil...

❑ **Əli Rais,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019

# Ordumuzun genişmiqyaslı təlimləri başladı - hücum edəkmi...

## Politoloq: "Azərbaycan indiki vaxtda hücuma keçsə, bu, beynəlxalq aləmdə mənfi qiymətləndiriləcək"

**Azərbaycan ordusu mayın 20-dən etibarən iri-miqyaslı hərbi təlimlərə başlayıb. Bununla bağlı Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Məlumatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.**

Düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi təlimin əsas mövzusudur.

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq. Məlumatda deyilir ki, genişmiqyaslı əməliyyat-taktiki təlimləri mayın 24-dək davam edəcək.



Mayın 24-də isə "Anadolu Ankası-2019" beynəlxalq hərbi təlimlərinin açılış mərasimi olacaq. AzVision.az xəbər verir ki, bununla əlaqədar Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan cümə günü təlimlərin keçiriləcəyi Konyaya səfər edəcək. Azərbaycan, İngiltərə, Şimali Kipr Türk Cümhuriyyəti, Pakistan, Rumıniya və Türkiyə nümayəndələrinin qatılacağı təlimin açılışında rəsmi qonaqların iştirakı nəzərdə tutulub. Qeyd edək ki, təlimlərdə Azərbaycan Hərbi Hava Qüvvələri də iştirak edəcək.

Azərbaycan son ayda 3 hərbi təlim keçirib ki, onların ikisi qardaş Türkiyə ilə birgə reallaşıb. Bu isə işğalçı ölkədə təşviş doğurur. Ermənilər hesab edirlər ki, Azərbaycan ərazilərini ölkəmiz daxilində gərgin siyasi proseslərin cərəyan etdiyi zaman işğal etdikləri kimi, Azərbaycan ordusu da Ermənistan daxilində qarışıqlıq yaranmasından istifadə edib ərazilərini qaytara bilər. Artıq bununla əlaqədar həyəcanlı açıqlamalar yayılmaqdadır. Bəzi müşahidəçilər bunu Azərbaycanın şansı hesab edirlər.

**Politoloq Tofiq Abbasov** "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan ordusunun bu şəraitdə hücuma keçmə ehtimalı son dərəcə azdır: "Rəsmi Bakı hadisələri izləyərək, çox güman, Ermənistanın daxili hərc-mərcliyini geosiyasi kontekstdə qiymətləndirəcək ki, sonradan özü üçün dividentlər əldə etsin. Hər halda, Ermənistan bir məmləkət kimi çökməkdə davam edir. Ona bu prosesdə mane olmaq düzgün deyil. Bir də ki, Azərbaycan indi hücuma keçsə, bu, beynəlxalq aləmdə mənfi qiymətləndiriləcək. Daha vacib olan budur ki, Ermənistan növbəti böhranından çıxdıqdan sonra rəsmi Bakı artıq ultimativ formada öz ərazilərinin işğaldan azad olunmasını tələb etsin".

**Ermənistan daxilindəki durumdan bəhs edən ekspert qeyd etdi ki, bu hərəkətlənmədə xüsusi məqsədlər var:** "İndi Ermənistanın bütün siyasi qüvvələri meydana axışır ki, hakimiyyət payından özlərinə qazanc əldə etsinlər. Belə vəziyyət qeyri-stabilliyin bariz göstəricisidir. Nikol Paşinyan hakimiyyəti yenə tərəfdarlarını kütləvi aksiyalara çağırmaqla, bir daha özünün səriştəsizliyini və qüdrətsizliyini etiraf edir. Artıq bu hakimiyyətin mifik imkanları hamıya sübut olundu və siyasi rəqiblər çalışacaqlar ki, fürsətdən istifadə etsinlər. Köçəryan əlbəttə ki, həbsdə olmasının revanşına çalışacaq və bunun üçün də Qarabağ klanından istifadə edəcək. Təsadüfi deyil ki, qondarma "dqr"in başbilənləri Bako Saakyanla Arkadi Qukasyan İrəvana gəlib Köçəryana dəstək verməyə qərarlıdırlar. Növbəti dövlət çevrilişi ilə terror aktlarını istisna etmək olmaz. Qarabağ klanı üçün qan tökmək adi işdir. Odur ki, Paşinyan gərək bütün riskləri nəzərə alıb ehtiyatla hərəkət etsin. Onun üçün ən ağır zolaq başlayır və o, nə dərəcədə çevik və iş qabiliyyətli olmasını nümayiş etdirməli olacaq. Lakin onun "biz inqilabın ikinci mərhələsinə qədəm qoyuruq" deməsi göstərir ki, Paşinyan həm naşı və həm də zəif siyasətçidir. İnqilabdan bir il ötməsinə baxmayaraq, o hələ də nə etmək istədiyini aydın göstərə bilməyib".

**T.Abbasovun fikrincə, Moskva Paşinyana mane olmaq istəmir:** "Rusiya istəmir ki, onun səhvlərinin qarşısı alınsın. Zəif oyunçuya həmişə imkan yaratmaq lazımdır ki, özünü yandırsın. Bir də ki, Moskva heç Köçəryana da avans vermək niyyətində deyil. Ermənistan kimi boşluqlara qərq olunmuş ölkədə fövqəl qüvvələr heç vaxt əsaslı siyasət yeritməyə tələsmirlər".

❑ **Cavid TURAN,**
**"Yeni Müsavat"**

# Ədalətli məhkəmə sistemi - investisiya üçün yaşıl işıq

## Orxan Məmmədov: "Hakimlərin sahibkarlıqla bağlı biliklərini artırmaq, müasir baxış tərzini formalaşdırmaq üçün onların ixtisasartırma kurslarına cəlb edilməsini məqsədəuyğun hesab edirik"

**Azərbaycanda məhkəmə sisteminin, məhkəmə qərarlarının sahibkarların fəaliyyətinə təsiri heç də müsbətyönümlü deyil. Beynəlxalq təşkilatların, xarici və yerli ekspertlərin qeyd etdiyi, beynəlxalq səviyyəli reytinqlərdə Azərbaycanın mövqeyinə mənfi təsir göstərən bu hal ölkə rəhbərliyinin də diqqətindədir. Mövcud vəziyyəti dəyişmək məqsədilə prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində islahatları nəzərdə tutan fərmanında Azərbaycanda sahibkar mübahisələrinin həlli ilə məşğul olacaq ixtisaslaşmış məhkəmələrin yaradılması ayrıca qeyd olunub.**




Sahibkarlıq subyektlərinin məhkəmə sistemində üzləşdikləri çətinliklər dünən Bakıda keçirilən məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi adlı tədbirdə dilə gətirilib. Tədbirdə çıxış edən **Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov** deyib: "Məhkəmələr eyni və oxşar məsələlər üzrə fərqli qərarlar verməklə biznes üçün gözlənilməz xərclərin yaranmasına səbəb olur. Bir sıra hallarda isə məhkəmə sistemi və icra mexanizmləri yeni çağırışlara effektiv uyğunlaşmasını tam dəstəkləmir". **Onun sözlərinə görə, bu baxımdan agentlik kiçik və orta sahibkarların maraqlarının müdafiəsi üzrə vəzifələrin icrası zamanı bir sıra problemlərlə üzləşir:** "Belə olduğu təqdirdə agentliyin fəaliyyəti sahibkarların qanuni hüquqlarının pozulması hallarının müşahidə etməklə məhdudlaşır. Müraciətlərdə tez tez təkrarlanan hallar məhkəmə instansiyalarının qərarlarının bir- birini təkzib etməsi nəticəsində süründürməçiliyin mövcudluğu, məhkəmə prosedurlarına riayət edilməməsi kimi hallardadır. Düzgün icra mexanizmləri olmadan məhkəmə sistemini natamam hesab etmək olar"(Report).

**O.Məmmədovun sözlərinə görə, məhkəmə alternativ həlli üsullarının, arbitraj institutlarının gücləndirilməsi istiqamətində tədbirlərin sürətləndirilməsini vacib hesab edirlər:** "Sonrakı mərhələdə isə agentlik olaraq bunun sahibkarlar arasında təbliğinə dair tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı. Sahibkarlar məhkəməyə son həll üsulu kimi baxmalıdır. Hakimlərin sahibkarlıqla bağlı biliklərini artırmaq, müasir baxış tərzini formalaşdırmaq üçün hakimlərin ixtisasartırma kurslarına cəlb edilməsini məqsədəuyğun hesab edirik".

O.Məmmədov bildirib ki, məhkəmə qərarlarının məzmun keyfiyyətinin artırılması, məhkəmə qərarlarının məzmununun sadələşdirilməsi əhəmiyyətli hesab edilir.

**Ədalətli məhkəmə sistemi sahibkarlar, xüsusilə də kiçik və orta sahibkarlar üçün nə deməkdir? Azərbaycanda belə bir sistemin formalaşdırılması üçün hansı addımlar atılmalıdır? Sualları cavablandıran hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, məhkəmə sistemindəki vəziyyət bütün sahibkarlara eyni təsir edir:** "Sadəcə, kiçik sahibkarların özü üçün hüquqşünas saxlamaq, yaxud keyfiyyətli vəkil xidmətindən yararlanmaq, hüquqi məsləhət almaq imkanları məhduddur. Prezidentin məhkəmə-hüquq islahatlarına dair fərmanı bütövlükdə hamı üçün müsbət nəticə verəcək: həm istehlakçılar, həm sahibkarlar üçün. Fərmana əsasən sahibkarlar üçün ixtisaslaşmış məhkəmələr, elektron axtarış sistemi formalaşdırılacaq. Bu, sahibkarların işini çox asanlaşdıracaq".

**Ə.Həsənovun sözlərinə görə, sahibkarların digər problemi Azərbaycanda hüquqi ədəbiyyat qıtlığının olmasıdır:** "Bu gün axtarsaq, ciddi hüquqi ədəbiyyat tapmaq müşkül məsələdir. Olanlar da rus və ya ingilis dillərindən tərcümələrdir. Bu baxımdan, hüquqi maarifləndirmə xarakterli ədəbiyyatların hazırlanaraq dərc olunmasına ciddi ehtiyac var".

**İqtisadçı-ekspert Rəşad Həsənov bildirir ki, ədalətli məhkəmə sistemi sahibkarlıq üçün ən başlıca problemlərdən biridir:** "ATƏT-in hələ 2005-ci ildə üzv ölkələrə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi, biznes mühitinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələri var. Həmin tövsiyələrdə məhkəmə sisteminin keyfiyyəti məsələsi ən vacib məqamlardan biri kimi qeyd olunub. Çünki hüququnun qorunması ehtimalı aşağı olan investorun ölkəyə cəlb edilməsi, yaxud iqtisadiyyatda iştirakı az ehtimal olunan məqamdır. Ona görə də hər zaman təkrar-təkrar bildiririk ki, ədalətli məhkəmə sistemi Azərbaycanda ilk olaraq mülkiyyət hüququnun təmin edilməsinin əsas zəmanətidir. Eyni zamanda biznes fəaliyyətinə kənar və qanunsuz müdaxilələrin qarşısını alan, sahibkarları bundan qoruyan əsas mexanizmdir. Bu olmadığı təqdirdə nə yerli investor, nə də xarici investor iqtisadiyyatda iştirak etməkdə, investisiya qoymaqda maraqlı olmayacaq. Baxın, son illərdə bir sıra istiqamətlər üzrə Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyi xeyli yaxşılaşıb. Amma bu, real olaraq iqtisadiyyata investisiya qoyuluşunun artmasına gətirib çıxarmayıb - söhbət yerli və xarici özəl investisiyalardan gedir. Çünki mülkiyyət və biznes hüquqlarının müdafiəsi ilə bağlı təkmil məhkəmə sistemi mövcud deyil. Əgər Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, ölkəyə xarici investorların cəlb olunması yolunu tutursa, artıq məhkəmə islahatlarına başlanmalıdır. Ədalətli qərar qəbuletmə mexanizmi formalaşdırılmalı, mülkiyyət hüququnun toxunulmazlığı təmin olunmalıdır. Bu, olmasa ciddi nəticələrin əldə edilməsi də mümkün olmayacaq".

**Qeyd edək ki, məhkəmə-hüquq islahatları ilə yanaşı, Azərbaycanda rəqabətli biznes mühitinin formalaşdırılması üçün Rəqabət Məcəlləsinin də qəbul olunması planlaşdırılır - 2020-ci ildə. R.Həsənovun fikrincə, bu məsələdə ölkəmiz xeyli gecikib:** "On ildən yuxarıdır bu sənədin qəbulu prosesi yubadılır. Rəqabət Məcəlləsi iqtisadiyyatın liberallaşdırılması üçün çox ciddi hüquqi təminat bazası rolunu oynayır. Düşünürəm ki, məcəllənin qəbulunun yubanması bir sıra amillərlə bağlıdır. Bunlardan birincisi və ən əsası, mülkiyyət steykholder qruplarının bu prosesi sabotaj etməsidir. Bu qruplar Azərbaycandakı mövcud məmur biznesi sisteminin saxlanmasına çalışırlar. Rəqabət Məcəlləsi bu istiqamətdə müəyyən qruplara hüquqi mübarizə üçün baza rolunu oynayacaq. Ədalətli məhkəmə sistemi qurulduğu halda, qanunların müəyyən etdiyi çərçivələrdən uzaqlaşmaq imkanlarını kəskin məhdudlaşdırır".

**Ekspert hesab edir ki, Avropa Birliyi ilə strateji partnyorluq sazişinin imzalanması, Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesinin yubanması da Rəqabət Məcəlləsinin qəbulunu ləngidən amillərdəndir:** "Həm Avropa Birliyi ilə saziş, həm də ÜTT-yə üzvlük prosesində Rəqabət Məcəlləsinin qəbulu danışıqlar prosesinin tərkib hissələrindən biridir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Azərbaycan qaziləri ilə görüşən Ərdoğan onlara nələr deyib?

## Emil Həsənli: "Çıxışımda bildirdim ki..."

**Türkiyədə Cümhuriyyətin qurucusu Mustafa Kamal Atatürkün 1919-cu il, 19 mayda Samsun yolçuluğunun 100 illiyi ilə bağlı yüksək səviyyədə tədbir keçirilib. Tədbirə Azərbaycan qaziləri də dəvət olunublar. Gənclər və İdman Nazirliyinin, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, "Gəncləri Maarifləndirmə" İctimai Birliyinin təşkilatçılığı ilə qazilərimiz Türkiyədə keçirilən mərasimdə iştirak ediblər.**

Tədbirdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emil Həsənli "Yeni Müsavat"a açıqlamasında səfərin yüksək səviyyədə keçdiyini bildirdi: "Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün 1919-cu il 19 mayda Samsun yolçuluğunun 100 illiyi qardaş ölkədə cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə yüksək səviyyədə qeyd olundu. Azərbaycan qaziləri də heyət şəklində bu tədbirə dəvət olunmuşdu. Səfərdə Qarabağ müharibəsinin iştirakçıları, Milli Qəhrəman Vahid Quliyev, Əfqanıstan Müharibəsi Veteranlarının İctimai Birliyinin sədri Məhəmməd Vəliyev və aprel döyüşlərinin iştirakçıları iştirak edirdilər. Biz üç ildən artıqdır qarışıqlı səfərlər həyata keçiririk. Bakının Qurtuluş günü ilə bağlı qardaş ölkədən heyət Azərbaycana gəlir. Bu il Mersin və Adananın qurtuluşu ilə bağlı Türkiyəyə səfər etdik. Bu səfər çərçivəsində bayram tədbirlərində iştirak etdik. Cümhuriyyət meydanında böyük tədbir oldu. O tədbirdə ölkənin hər yerindən Samsuna gələn idmançılar iştirak edirdi. Azərbaycandan gedən heyətin rəhbəri olaraq heyət adından çıxış etdim. Valiyə ölkəmizin bayrağını təqdim etdik. O da məmnunluğunu ifadə etdi. Çıxışımda bildirdim ki, Bakının azad edilməsində türk ordusunun böyük rolu var, 1100 şəhid verib. Eyni zamanda Çanaqqala döyüşlərində azərbaycanlıların iştirakını qeyd etdik, 3 mindən çox azərbaycanlının şəhid olduğunu diqqətə çatdırdıq. İstiqlal savaşına azərbaycanlıların maddi və mənəvi cəhətdən dəstək olduğunu bildirdik. Hazırkı Azərbaycan-Türkiyə əlaqələrindən də bəhs edildi. Türkiyə prezidenti Samsundan xalqa müraciət etdi. Tədbirlərin sonunda Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə iftar süfrəsi açıldı. Bizlər də orada iştirak etdik. Sevindirici haldır ki, Azərbaycan dövlətinə və xalqına Türkiyə dövlətinin, onun rəsmilərinin, türk xalqının münasibətini öz üzərimizdə hiss edirik".







**E.Həsənli Ərdoğanla görüşlərindən də bəhs etdi:** "Tədbirin protokolu öncədən müəyyən edilmişdi. Nəzərdə tutulmuşdu ki, Azərbaycandan gedən heyətin Türkiyə prezidenti ilə görüşü olacaq. Görüşdə Rəcəb Tayyib Ərdoğan Azərbaycanın qardaş dövlət olduğunu qeyd etdi. Qazilərimizə xüsusi təşəkkürünü bildirdi. Böyük əminliklə ifadə etdi ki, Azərbaycan mütləq öz torpaqlarına qayıdacaq. Bunun üçün ölkəsinin nə lazımdırsa, onu etməyə hazır olduğunu bəyan etdi. Ulu öndərimiz Heydər Əliyevin "bir millət iki dövlət" fikirlərini xatırlatdım. Türkiyənin beynəlxalq aləmdə haqq işimizi müdafiə etdiyinə, Ermənistanla sərhədlərini açmadığına, ölkəmizlə ən yüksək səviyyədə əlaqələr qurduğuna görə Ərdoğana qazilərimizin, gənclərimizin salamlarını, təşəkkürlərini çatdırdım. Cənab prezident İlham Əliyevlə Ərdoğanın Azərbaycan rəssamlarının hazırladığı fotosunu Türkiyə Cümhurbaşqanına təqdim etdim. Eyni zamanda Qarabağ əlilləri, şəhid ailələri və müharibə veteranları təşkilatının "Vətən naminə" medalını Rəcəb Tayyib Ərdoğana təqdim etdik. Türk ordusunun 1918-ci ildə Bakıya girişlərinin tablosu çəkilmişdi. O tablo da hədiyyə olundu. Ərdoğan hədiyyələrə görə təşəkkürünü bildirdi. Bu görüşdən məmnunluğunu da ifadə etdi, qazilərimizin sağlamlıqları ilə maraqlandı. Biz qazilərimizə, müharibə veteranlarına, şəhid ailələrinə ölkəmizdə olan qayğını Türkiyə prezidentinin diqqətinə çatdırdıq. Ərdoğan Azərbaycan prezidenti İlham Əliyevin xalqı, dövləti, eyni zamanda, Türkiyə Cümhuriyyəti, region üçün gördüyü işləri yüksək qiymətləndirdi, İlham Əliyevlə fotosunun bir tabloda yer almasından məmnunluğunu ifadə etdi".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# İcra başçısı Dilqəm Əsgərovun oğluna kişi sözü verib...

## Kürdoğlu Əsgərov: "Başçı yaxın vaxtlarda torpaq sahəsinin tam qanuni şəkildə sənədləşdirilərək, mənim istifadəmə veriləcəyinə söz verdi"; BQXK girovlardan xəbər gətirdi

**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov erməni girovluğunda saxlanan Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərovla görüşüb. Bu barədə modern.az-a K. Əsgərov bildirib. K.Əsgərov sözlərinə görə, A.Məmmədov onun torpaq sahəsinin icra müqaviləsinin müddətinin artırılması üçün aidiyyəti dövlət qurumlarına rəsmi müraciət edəcəyini açıqlayıb: "Məni öz evinə dəvət etdi, görüşdə mənim problemlərimlə maraqlandı. Başçıya bildirdim ki, mənim tək bir problemim var, o da atamın mənə alıb verdiyi torpaq sahəsinin əlimdən çıxmasıdır. Başçıya dedim ki, bu torpağı atam azad olunub gələnədək canla-başla qoruyub saxlamalıyam".**

O qeyd edib ki, başçı ilə aralarındakı anlaşılmazlıq həllini tapıb: "O, mənə kişi sözü verdi ki, həmin torpaq sahəsi yenidən mənim səlahiyyətimə qaytarılacaq. Səmimi söhbət zamanı bir-birimizi başa düşdük və ortaq məxrəcə gəldik ki, arada bəzi səhv anlaşılmazlıqlar olub. Başçı yaxın vaxtlarda həmin torpaq sahəsinin tam qanuni şəkildə sənədləşdirilərək, mənim istifadə veriləcəyinə söz verdi".

Qeyd edək ki, K.Əsgərov 5 il əvvəl icarəyə götürdüyü torpaq sahəsinin icarə müddəti bitdiyi üçün Şəmkir Rayon İcra Hakimiyyətinə müraciət etsə də, ona məhəl qoyan olmamışdı.

K.Əsgərov bildirmişdi ki, torpağının əlindən alınması səbəbi ərazinin yeni çəkilən "İpək yolu"un üzərində yerləşməsidir: "Mənim ərazimdə də xeyli materiallar var. 5 il əvvəl həmin torpağı icarəyə götürmüşəm. İndi icarə müqaviləsinin vaxtı bitir. Şəmkir Rayon İcra Hakimiyyətinə nə qədər müraciət etsəm də müqaviləninin müddətini artırmırlar. Başçı isə bizi qəbul etmir ki, dərdimizi ona deyək".



Bu arada Dilqəm Əsgərovdan yeni xəbər gəlib. Belə ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) nümayəndələri Dilqəm Əgsərov və Şahbaz Quliyevlə görüşüblər. BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova ONA-ya bildirib ki, təmsil etdiyi qurumun nümayəndələri may ayında Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə bir daha baş çəkib: "Biz münaqişə nəticəsində saxlanılan şəxslərə mütəmadi baş çəkməkdə davam edirik. Mandatına uyğun olaraq, BQXK saxlanılan şəxslərə ona görə baş çəkir ki, saxlanma şəraiti və onlarla rəftarı monitorinq etsin, həmçinin saxlanılan şəxslərə ailələri ilə əlaqə saxlamalarına şərait yaratsın".

**Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, BQXK nümayəndələrinin girovlarla görüşdüyü barədə onlara məlumat veriblər. Lakin yenə də nə şəkil, nə də videogörüntü gətirməyiblər:** "Beynəlxalq Qızıl Xaç Komitəsinin əməkdaşları may ayı ərzində atamgilə növbəti dəfə baş çəkiblər. Bundan sonra isə bizimlə əlaqə saxlayıb məlumat veriblər. Təəssüflər olsun ki, 2017-ci ilin noyabr ayının 1-dən indiyə qədər Beynəlxalq Qızıl Xaç Komitəsi atam Dilqəm Əsgərovdan nə məktub, nə videogörüntü gətirməyib. Bizə ancaq şifahi məlumat veriblər. Şifahi verdikləri məlumata əsasən, onların dediyinə görə, atamın səhhətində ciddi problem yoxdur. Eyni məlumatı bu dəfə də veriblər. Nə məktub gətirirlər, nə də bir görüntü.

Əsir və girovların "Hamısının hamıya" prinsipi ilə dəyişdirilməsi məsələsi bilirsiniz ki, bu yaxınlarda Rusiya xarici işlər naziri Sergey Lavrov tərəfindən də dilə gətirildi. Azərbaycan tərəfinin irəli sürdüyü bu təklif artıq belə görünür ki, Rusiya tərəfindən dəstəklənir. Mən inanıram ki, cənab prezident İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində atam və Şahbaz Quliyev yaxın zamanlarda girovluqdan azad ediləcək, ailələrinə qovuşacaq".

Qeyd edək ki, 2014-cü ilin iyul ayında Rusiya vətəndaşı Dilqəm Əsgərov və Azərbaycan vətəndaşı Şahbaz Quliyev Kəlbəcərə gedib öz ata-baba yurdlarını, doğmalarının məzarlarını ziyarət etmək istəyərkən Ermənistan əsgərləri tərəfindən girov götürülüblər, Azərbaycan vətəndaşı Həsən Həsənov isə güllələnərək öldürülüb. H.Həsənovun meyiti düşməndən alınaraq Bakıda dəfn edilib. İşğal altındakı Dağlıq Qarabağda D.Əsgərov və Ş.Quliyev üzərində qanunsuz "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D.Əsgərov ömürlük, Ş.Quliyev 22 il müddətinə azadlıqdan məhrum edilib. Onların hər ikisi hazırda Şuşada saxlanılır.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019

**Yay fəsli yaxınlaşır. Artıq Azərbaycanda temperatur 30 dərəcəyə çatmaqdadır. Temperaturların yüksəlməsi diqqəti ölkənin enerji təchizatındakı vəziyyətə yönəldir. Belə ki, ötən ilin iyulunda kəskin isti hava şəraitində Mingəçevirdə yerləşən “Azərbaycan” İstilik Elektrik Stansiyasında istehlakın artması nəticəsində yaranan gərginlik səbəbi ilə yanğın və qəza baş vermiş, ölkənin demək olar ki, bütün ərazisi bir neçə saatlığa qaranlığa qərq olmuşdu.**

# Enerji sistemi yaya necə hazırlaşır?

## “Azərenerji” və “Azərişıq” birgə tədbirlər həyata keçirir



Qeyd edək ki, beynəlxalq mərkəzlər bu ilin bütün dünyada ən isti illərdən biri olacağını proqnozlaşdırırlar. Artıq bir sıra ölkələrdə kəskin isti havalar qeydə alınmağa başlayıb. Bu isə keçənilki isti hava rejiminin bu il də təkrarlanması ehtimalını yaradır. Onu da bildirək ki, ölkədə enerji istehsalı, eyni zamanda istehlakında da artım müşahidə olunur. Belə ki, “Azərenerji” ASC-nin açıqladığı məlumata görə, 2019-cu ilin yanvar-mart ayları ərzində Azərbaycanda 6,151 milyard kVt/s elektrik enerjisi istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 153 milyon kVt/s və ya 2,5 faiz çoxdur. Belə ki, ötən ilin birinci rübündə Azərbaycanda 5,998 milyard kVt/s elektrik enerjisi istehsal edilmişdi.

Bir faktı da qeyd edək ki, 2018-ci ilin birinci rübü ilə müqayisədə 2019-cu ilin birinci rübündə elektrik enerjisinin istehlakı 3,41 faiz artıb. Ən əsası isə ötən ilin mart ayı ilə müqayisədə bu ilin mart ayında istehlak 6,1 faiz çox olub ki, bu da kifayət qədər ciddi artım olmaqla yanaşı, elektrik enerjisinə artan tələbat tempinin getdikcə yüksəldiyini göstərir.

Yerli istehlakın artması ilə yanaşı, Azərbaycan xarici ölkələrə enerji ixracını da artırır. Belə ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında xaricə 45,09 milyon dollarlıq 1 milyard 48,9 milyon kVt/saat elektrik enerjisi ixrac edilib. Maraqlıdır ki, ötən ilin eyni dövründə ixracımız 987 949.77 min kVt/saat olsa da, ondan gəlirimiz builkindən daha yüksək - 47 milyon 303.79 min dollar olmuşdu. Gürcüstanın Milli Statistika İdarəsinin ilkin hesabatından isə aydın olur ki, bu ilin yanvar-aprel aylarında elektrik enerjisinin əsas ixrac ölkəsi Gürcüstan olub - Azərbaycandan 26 milyon 261,8 min dollar dəyərində enerji alıb. Bu, ötən ilin eyni dövründəkindən 1 milyon 396,3 min dollar və ya 5,6 faiz çoxdur (“Report”).

May ayının əvvəlindən isə Azərbaycan Yunanıstan, Rumıniya və Macarıstana elektrik enerjisinin ixracına başlayıb. Belə ki, artıq mayın 1-dən “Azərenerji” ASC Gürcüstan və Türkiyədən tranzit yolu ilə Yunanıstana, eyni zamanda Gürcüstan, Türkiyə və Bolqarıstandan tranzit yolu ilə Rumıniya və Macarıstana elektrik enerjisinin ixracına başlayıb. May ayı üçün enerji idxalı ilə bağlı Yunanıstandakı hərracda 7, Bolqarıstandakı hərracda 5 şirkət iştirakçı olub ki, onların hər ikisində “Azərenerji” uğur əldə edib. Dövlət şirkəti qarşıdakı aylarda Avstriya və İtaliyaya da elektrik enerjisi ixrac etməyi planlaşdırır.

Azərbaycanın enerji istehsalı müəssisələri, ötürücü şəbəkələr yay fəslində artacaq enerji tələbatını qarşılamağa hazırdırmı? Ölkə rəhbərliyinin tapşırığı əsasında “Azərbaycan” İES-də başlanmış bərpa və yenidənqurma işləri hansı mərhələdədir? Sualları cavablandıran **“Azərenerji” ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Teymur Abdullayevin “Yeni Müsavat”a dediyinə görə, həyata keçirilməsinə başlanan reabilitasiya proqramına uyğun olaraq “Azərbaycan” İES-də təmir-bərpa işləri davam etdirilir:** “Bildiyiniz kimi, bu stansiya 8 blokludur. 6 saylı enerji blokunda aparılmış işlər nəticəsində 60 meqavatlıq itirilmiş güc bərpa olunub. Həmçinin 500 kVt-luq açıq paylayıcı qurğusunun tikintisi, 7 saylı enerji blokunda təmir işləri həyata keçirilib. Nəticədə 7-ci blokun istehsal gücü 70 meqavatta qədər artıb. Hazırda işlər davam edir: müxtəlif sexlər, qurğular, çənlər, laboratoriyalarda təmir və yenidənqurma tədbirləri həyata keçirilir. Eyni zamanda 500 və 300 kVt-luq hava xətlərinin, rele-mühafizə sisteminin, əks-qəza avtomatikasının tamamilə yenidən qurulması nəzərdə tutulur. 500 və 330 kVt-luq yarımstansiyalar da tam yenidən qurulur. Ümumilikdə, stansiyada reabilitasiya proqramının 2020-ci ildə başa çatdırılması nəzərdə tutulur. Bu proqramın icrası nəticəsində stansiyanın istehsal gücü 380 meqavatt artırılaraq 2 min meqavatta çatdırılacaq.

T.Abdullayev onu da bildirdi ki, ötənilki qəzanın təkrarlanma ehtimalını aradan qaldırmaq üçün **“Azərenerji” və “Azərişıq” ASC-lər birlikdə qabaqlayıcı və kompleks tədbirlər həyata keçirirlər:** “Belə ki, ”Azərenerji" istehsal müəssisələrində qüsurlu avadanlıqların dəyişdirilməsi, temperaturun yüksəlməsi ilə bağlı avadanlıqlarda yarana biləcək çatışmazlıqların vaxtında aradan qaldırılması, yay ayları üçün maksimum güc rejiminin hazırlanmasını qarşıya tapşırıq kimi qoyub. Eyni zamanda yüksək gərginlikli ötürmə xətlərində, o cümlədən yarımstansiyalarda təmir və yoxlama işlərinin aparılması, hava xətlərinin mühafizə zonalarında baş verə biləcək yanğın hadisələrinin qarşısının alınması üçün xətlərin qoruq zonalarında xüsusi tədbirlərin həyata keçirilməsinə göstəriş verilib. Enerji sisteminin idarə olunması işini keyfiyyətlə həyata keçirmək üçün xarici mütəxəssislərin dəvət olunması, baş verə biləcək hər hansı qəza hallarında əks-qəza sistem avtomatikasının işinin “Azərişıq” ASC ilə birgə təmin olunması qarşıya məqsəd qoyulub".

ASC rəsmisi onu da bildirdi ki, yay aylarında “Şimal-2" elektrik stansiyasının istehsala başlaması nəzərdə tutulur.

**❑ DÜNYA, “Yeni Müsavat”**

# Oljas Süleymanov yüksəkliyindən...



**Hüseynbala SƏLİMOV**

**Güman, ilk iki sətri oxuyan kimi həmişə narazı oxucu qayıdacaq ki, bəli, bu da növbəti “məqaləciyəz”ini qaralamaq üçün bəhanə tapıb.**

Odur, bəri başdan deyirəm: Oljas Öməroviç üçün mənim bu iki-üç sətri yazımağımın və ya yazmamağımın heç bir mənası varmı? Hətta Azərbaycanda bu adamı o qədər yaxşı tanıyırlar ki, hər hansı təqdimata qətiyyən ehtiyac yoxdur.

O, həqiqətən elə insanlara aiddir ki, bunları mübaliğəsiz Azərbaycanın dostu adlandırmaq olar, ən azı ona görə ki, bu adam çox azsaylı sovet mədəniyyət xadimlərindən oldu ki, 90-cı ilin ağrılı yanvar günlərində tək qoymadı bizi və buna görə ona daim minnətdar olacağıq.

Yazının “bəhanəsi”nə gəldikdə isə, ötən günəşli şənbə günü evdə oturmuşdum və bekarçılıqdan televiziyadan günün tarixi xronikasını dinləyirdim ki, əmin olum, ən azı tarixdə bu gün mənim düşündüyüm kimi boz və darıxdırıcı olmayıbdır. Məlum oldu ki, elə belə imiş, ən azı ona görə ki, 83 il əvvəl, məhz bu gündə - mayın 18-də Oljas Öməroviç dünyaya göz açmışdı.

Etiraf edirəm ki, həmin gün ovqatım yamanca təlx idi, çünki son vaxtlarda siyasi jurnalistika lap cəhənnəm əzabına çevrilib. Redaktorlar daha hansı iradlar demirlər?!. Kimi ehtiyat edir ki, sənin yazın ölkənin Rusiya və İranla onsuz da “kövrək” tarazlığını poza bilər, digərini qardaş Türkiyə ilə münasibətlər qayğılandırır, çünki çox hörmətli prezident R.T.Ərdoğanı da bizim qüdrətli məmurlarımız kimi yalnız tərifləmək və bir daha deyirəm ki, bəli, yalnız tərifləmək olar.

Odur ki, Oljas Öməroviçin familiyasını eşidən kimi heç özüm də bilmədim ki, bir sual beynimdən necə keçdi: bu cür ziyalı və intellektual adam Nazarbayevin despotik asiyalı rejimi ilə necə yola gedir? Üstəlik, bu, bir yana, Nursultan müəllim onu qısaca və mehribancasına “dostum Oljas” adlandırır!..

Müqayisə üçün deyim ki, elə Oljas Öməroviç kimi çox istedadlı və maraqlı insan olan Belarus yazıçısı Vasil Bıkov Lukoşenko rejimi yola gedə bilmədi və ölkəni tərk etməli oldu, yalnız ölüm ərəfəsində vətənə döndü.

Vaxtilə eyni şeyləri Çingiz Torekuloviç Aytmatov haqqında düşünürdüm: əcəba, bu adam Qırğızıstanda darıxmırmı? Düzdür, bilirdim ki, məşhur “suverenlik paradı”ndan - müttəfiq sovet ölkələri müstəqil olandan sonra Oljas Öməroviç də, Çingiz Türokuloviç də özlərini diplomatik müstəvidə sınamağa başladılar və ölkələrini xaricdə təmsil etdilər. Amma güman, bunlar bütün hallarda ölkələrindəki vəziyyətdən hali idilər. Bəzən hətta düşünürəm ki, bəlkə Qırğızıstan ona görə az-çox demokratikdir ki, bu ölkənin Aytmatovu vardı, hərçənd, bu fikir olduqca mübahisəlidir.

Amma sözüm bunda deyil. Ədəbi publisistlərin sevimli ifadəsi var: “fikir yüksəkliyi”. Görünür, çox şey bundan asılıdır: bu yüksəklikdən günün problemləri o qədər ötəri və epizodik görünür ki, hətta onların üzərində fikir cəmləşdirməyə tənbəllik edirsən - axı onlar o qədər ötəri və müvəqqətidir ki...

Həm də yəqin, Oljas Öməroviç də, Çingiz Torekuloviç də həmişə fəqrində olublar ki, orta statistik qazax və ya qırğız heç də post-liberal Hollandiyanın vətəndaşı deyil - hələ illər lazımdır ki, bu iki müstəqlil ölkə Avropa anlamında demokratik olsun. Məsələn, Aytmatovun Bostonu (“Cəllad kötüyü” romanının qəhrəmanı) sözün klassik mənasında ailə başçısıdır, ailə ocağının qoruyucusudur, bununla belə o, daha çox asiyalı və patriarxal ənənələrə sadiq insandır.

Ona görə də mən bu iki yazıçını ölkələrində demokratik hərəkatın flaqmanları olmadıqlarına görə qınamıram; təəssüf ki, sovetlərin keçmiş müsəlman respublikalarındakı vəziyyətə təkcə anlaşıqla deyil, həm də səbrlə yanaşmaq lazımdır - həm də Avropa da birdən-birə bizim gördüyümüz indiki Avropa olmayıbdı, inqilablardan, qanlardan keçərək  bu duruma çatıbdır.

Odur ki, Çingiz Torekuloviçə ilk növbədə onun gözəl romanlarına və povestlərinə görə minnətdarıq. Oljas Öməroviçsə, uzun, bəlkə də yetmiş illik pauzadan sonra ilk adam oldu ki, bizə türklüyümüzü xatırlatdı, hərçənd ki, şəxsən mən onun “Az və Ya” kitabını ylanız yenidənqurma vaxtı görə bildim. Oljas Ömərovişin bir müsahibəsindən oxumuşdum ki, sovetlər vaxtı bu kitaba Bakıda avtomobil - “Moskviç” verirlərmiş...

Sonradan türklük və türklər haqqında hamı danışmağa başladı və hətta bu da modaya çevrildi. Hamımız özümüz üçün L.Qumilyovun kitablarını, onun mübahisəli passionarlıq nəzəriyyəsini kəşf etdik. Gəl, ən əsası başqa şeydir: insan bu və ya digər etnosa, xalqa aid olmasından qürur duymalıdır. Bu olmayanda və yaxud da zəif olanda o, bir plastilin olur və onu istənilən şəklə salmaq asanlaşır...

Bu illər ərzində dəfələrlə şahidi olmuşam ki, bəzi azərbaycanlılarımız etnik mənşəcə türk olduqları halda özlərini kürd, avar və yaxud da ləzgi kimi təqdim edirlər.

İnanın, bu millətərə qarşı mənim hər hansı iradım yoxdur, amma hər dəfə bu cür “metamorfozalar”ı seyr edəndə beynimdən bircə sual keçibdi: İlahi, belələrinə türk olduqlarını etiraf etmək doğrudanmı utanc gətirir? Yəni doğrudanmı min illər ərzində nəinki ayrı-ayrı imperiyaların, hətta bəşəriyyətin taleyini həll edən bir xalqın üzvü olmaq bu qədər utanclıdır?

Bu konteksdə Oljas Öməroviç ilklərdən biri oldu ki, dəmir pərdəni qaldıra bildi və bizə anlatdı ki, bizim də qürurlanmaq üçün əsaslarımız var, özü də çox böyük. Buna görə sağ olun, Oljas Öməroviç...

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019



# İşğal günü üçün repertuar

Zamin HACI
zaminhaci@gmail.com

"Rəbiüs-sani ayının 8-də Həzrət Həvvanın öz günüsü ilə vuruşan günüdür. Hər kəs öz arvadını döyüb baş-gözün dağıtsa, elə bilsin yüz kəniz azad eldi və əgər vurub öldürsə, qiyamət günü ona sual-cavab yoxdur"

*("Molla Nəsrəddin" jurnalı, 12 may, 1906)*

**Vətənpərvərlik sezonunun açılışını müəyyən dərəcədə uğurlu hesab edə bilərik. Bir nəfər manısı Laçının işğal günündə oxuduğu yerdə yaxalamışıq, İsraildə bayrağımızı tərs asmaqlarını və xəritəmizin bir tərəfini yeməklərini aşkara çıxarmışıq.**

İlk növbədə İsrailin kürəyimizə xəncər saplamasına qəzəbliyik. Axı biz onlarla qardaş-dost ölkə idik. Aramızdan, yalan olmasın, neft də keçmirdi, su bir yana qalsın. Biz onlar üçün işləyirdik, onlar da özləri üçün - Hacıbaba müəllimin bir obrazının diliylə desək. Mehribançılıq o dərəcədədir ki, Bakıda hər yerdə mason piramidası ucaldılıbdır. Avtovağzaldan Musavatın embleminə qədər. Hətta bizdə hazır dövlətçilik konsepti vardır, metroların üstündə mütləq piramida olmalıdır. Bəs indi yəhudi qardaşlarımız bizə qarşı niyə bu namərdliyi elədilər? Biz sizin bayraqdakı David ulduzunun böyrünə aypara çəksək, xoşlanarsınız? Yaxud xəritədə Colan təpələrini İranın torpağı kimi göstərsək? Heç yaxşı eləmirsiniz. Üzrxahlıq gözləyirik. Bu saat hamı üzr istəyir, təzə trenddir.

Laçının işğal günü oxuyan manısın əhvalatına gələndə, burada məsələ bir qədər qəlizdir. Eyni zamanda uzun söhbətdir.

Öncə biz vətənpərvərlik sezonunun Laçınla açılmasına diqqət çəkək. Bundan qabaq 20 Yanvar, Xocalı, Şuşanın işğalı kimi faciələrimiz olmuşdur, lakin həmin günlər manıslarımız özlərini bərk tutub oxumadılar. O cümlədən rəqqasələrdən də oynaqlayan, deyəsən, olmadı. Xeyli jurnalist nəticədə çörəyindən oldu, çünki biz əlimizdə qələm-kağız, mikrofon və sairə zəruri iş alətləri tutaraq vətənpərvərliyin keşiyində durmuşuq, onu göz bəbəyi kimi qoruyuruq. Hünəri var bircə manıs işğal-faciə günlərində mıqq eləsin. Dərisinə saman təpərik. Təpəsinə bayrağımızı sancarıq. Bəlkə rayonlar əldən gedəndə bu cür sayıq olsaq heç indi ermənilərdə də toy olmazdı. Ancaq nə ziyanı? Gec olsun, güc olsun.

Sadəcə, bu Laçının işğalı bir az pis vaxta düşdüyündən adətən diqqətdən kənarda qalır. Bu mənada Laçın nakam rayondur. İzah edim. Misal üçün, Şuşa gedib 8 mayda. Biz bunu dəqiq bilirik. Hər halda, 9 mayda gedəsi deyildi ki? Qələbə günü də lazımdır. Millətin Qələbə günü olmasa onu apar at millətsiz bir yerə. Rayonların topdan verilməsi isə yaya düşüb. Laçın qalıb arada. O üzdən, küçədə sorğu keçirdəndə də hərə bir tarix deyir. Biri deyir, 17 maydır, o biri deyir, 18 maydır. Elə son aşkara çıxarıb tərəfimizdən götürülən manıs da guya günahını yumaq üçün konserti 18 mayda verdiyini söyləyib: "İşğal və digər bizim üçün ağrılı günlərə tədbirlər salmırıq. Allaha şükür oxumuşuq, bilirik ki, 17 may Laçının işğal günüdür. Mən aidiyyəti şəxslərə dedim ki, bizə 17 maydan savayı hansı gün konsert zalı təşkil edə bilərsiniz. Onlar bizə dedilər ki, ya cümə, ya da şənbə günü ola bilər. 17-nə qəti etiraz bildirmişəm. İndi burada belə bir məsələ qaldırmaq ki, Eyyub bəy 17 may günü konsert verib, bu, ona qarşı çox böyük haqsızlıqdır. Çünki konsert 18-də baş tutub". Sitatın sonu. Gör necə qəşəng xırdalayır. Ancaq təəssüf ki, Vikipediyada Laçının işğal günü 18 may yazılıbdır.

Manıs yoldaşları da qınamıram, onların durumu çox çətindir. İnsaf naminə bunu qeyd eləməliyik. Nəyə görə? Misal üçün, 17 mayda, 18 mayda hər hansı başqa peşə yiyəsi öz işi ilə məşğul olanda onu qınamırıq. Jurnalist cızmaqarasını edir, xiyar satan xiyarını satır, icra başçısı şikayətçilərə atır, nə bilim, aktrisalar səhnədə yatır (qafiyə üçün yazdım, heç bir mənası yoxdur), ancaq buna görə biz onları pisləmirik. Ara yerdə qalır yazıq manıs tayfası. Özü də bizdə ilin faktiki hər gününə düşən faciə, işğal ildönümləri tapa bilərsən. Çünki Qarabağdakı hər kəndin, el-obanın da özünün işğal tarixi, qırğın-qiyaməti olubdur. Bölüşdürəndə, manıslara oxumaq üçün faktiki gün qalmır.

Sonda bir sual da mənə qaranlıq qalır, onu yazım: "Laçının işğal günü "Ay Laçın" xalq mahnısını oxumaq günah sayılırmı?" O cümlədən konserti ancaq ağlamalı mahnılardan versən, necə?..

**Ermənistanın sabiq prezidenti, Xocalı hərbi canisi Robert Köçəryanın ikinci dəfə həbsdən azadlığa, daha dəqiqi, zaminə buraxılması ilə düşmən ölkədə vəziyyət qarışıb. Nə qədər qəribə olsa da baş nazir Nikol Paşinyan bu dəfə ölkənin rəhbəri qismində xalqa müraciət edərək, kütləni etirazlara, məhkəmələrin işini tormozlamağa, hətta "ikinci inqilab"a çağırıb.**




# Ermənistanda əks-inqilab havası: Kreml "düyməyə" basır, İrəvan qarışır

## Qarabağ klanı Moskvanın "dobro"su, Köçəryanın başçılığı ilə hökumətə qarşı ayaqlanır; Paşinyan ətrafında həlqə daralır; Bakı üçün yeni Qarabağ fürsəti...

Paşinyanın hədəfi indi də Köçəryanın prokuror vəsatəti əsasında təzədən həbsə qaytarmaqdır. Çünki həm də Kremlin və Putinin sadiq adamı olan eks-prezidentin azadlıqda olması indiki hakimiyyətə real təhlükə deməkdir. Ən azından, Qarabağ klanının siyasi revanş üçün təzədən toparlanma şansı deməkdir. Çünki Köçəryan Qarabağ klanının əsas fiquru sayılır - istər mənəvi, istərsə də maddi planda.

Köçəryanın üçüncü dəfə həbsinin mümkün olub-olmayacağı hələlik dəqiq deyil. Dəqiq olan odur ki, inqilabdan keçən 1 ildə Paşinyan məhkəmə-hüquq sistemində də ciddi islahat aparıb onu müstəqil edə, ən azından Qarabağ klanının təsirindən qurtara bilməyib. Fakt budur ki, Paşinyanın iradəsinə rəğmən, Köçəryanı Ermənistanda 1 mart 2008-ci il qətliamına görə həbsdə saxlamağa qadir cəsarətli hakim tapılmır.

Ancaq bunun məsuliyyəti yenə Paşinyanın üzərinə gəlir. Deməli, hakimiyyət dayaqları 1 ildə elə də güclənməyib. Əksinə, belə görünür, inqilabçı baş nazir ətrafında halqa daralıb. Hər halda, təhlilçilər Köçəryanın həbsdən çıxmasını keçən bir ildə Paşinyana ən böyük zərbə və onun ilk ciddi məğlubiyyəti hesab edirlər.

Bu da diqqətçəkicidir ki, eks-prezident məhz Dağlıq Qarabağdakı separatçı rejimin indiki və keçmiş başçıları - bilavasitə Moskvaya bağlı olan Bako Saakyan və Arkadi Qukasyanın zəmanəti əsasında azadlığa çıxıb. Yəni Ermənistanın özündə Köçəryana, faktiki, "yiyə duran" olmayıb. Sadəcə, ürəkli hakim tapılmayıb. Paşinyan isə əmin idi ki, Köçəryan zindanda qalacaq. Hətta Şuşanın işğalının ildönümü ilə bağlı Qarabağda olarkən Saakyan və Qukasyanın zəmanət məktubuna sərt reaksiya vermiş, onlara "öz işləri ilə məşğul olmağı" məsləhət görmüşdü. Ancaq Qarabağ klanı güc gəldi...

*****

**"Bəs necə ola bilər ki, Köçəryana ikinci dəfə azadlığa çıxmaq müyəssər olur? Hakimiyyət təmsilçilərinə inqilab nəticəsində məhkəmə hakimiyyətinin müstəqil olduğunu söyləmək sərf edir. Ancaq hətta belədirsə də, o zaman inqilab nəinki dövlət sistemini, həm də və ilk növbədə məhkəmələrin keyfiyyətini və fəlsəfəsini dəyişə bilməyib". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə 1in.am portalında erməni siyasi şərhçi Sərkis Arsruninin məqaləsində deyilir.**

**Müəllif yazır:** "Aydındır ki, məhkəmələrin müstəqilliyi haqda söhbətlər boş şeydir. Hər halda, iş başında eyni hakimlərdir - hansılar ki, 1 il öncəyə kimi bütün qərarları cinayətkar-oliqarxik sistemin sifarişləri əsasında verirdilər. Bu gün heç nə dəyişməyib. Əgər Paşinyan hakimlərə göstəriş vermirsə, bu, heç də o demək deyil ki, onlar müstəqildir. Bizim hakimlər instinktiv olaraq qüvvələr nisbətini hiss edir və siyasi konyunkturadan çıxış edərək, qərar çıxarırlar. Əgər Köçəryan azadlığa çıxıbsa, bu, onu göstərir ki, hətta inqilabın qələbəsindən keçən 1 ildə də məhkəmə hakimiyyəti ölkədə yeni hakimiyyətin varlığını hiss eləmir, üstəlik, köhnə sistemin restavrasiya riskinin aradan qalxdığını düşünmür".

**Bu mənada müəllif hesab edir ki, məhkəmə hüquqa əsla dəxli olmayan siyasi qərar çıxarıb:** "Bu, Köçəryanın azadlığa çıxması haqda olmaqdan daha çox, Nikol Paşinyan hakimiyyətinin yoxluğu haqda qərardır. Bu reallığı hakimiyyət ciddiyə almasa, o zaman ölkədə fors-major situasiyalar tezliklə qanunauyğun şəkil alacaq - özünün bütün nəticələri ilə birgə. Şübhəsiz, Köçəryan öz azadlığını özünün "məğubedilməzliyi", Paşinyan hakimiyyətinin isə "yoxluğu"nun təzahürü kimi təqdim edəcək".

Belə fikir də var ki, həbsdən çıxan Köçəryan Moskvanın təlimatı ilə "Qarabağ klanı"nı yenidən öz ətrafında sıx birləşdirib Paşinyana qarşı hərəkətə keçəcək. Söhbət əks-inqilab hazırlığından gedir. Lakin bu yöndə Qarabağ klanına ən böyük maneə Paşinyanın hələ ki cəmiyyətdə yüksək olan reytinqidir. Qalır hərbi çevriliş variantı...

*****

**Bu arada "Freedom House"un xüsusi tədqiqatlar üzrə direktoru Neyt Şenken özünün twitter hesabında Ermənistandakı son olaylarla bağlı maraqlı status yazıb və Paşinyanı populist adlandırıb. "Yeni Müsavat" həmin statusu təqdim edir:** "Post-inqilab Ermənistanı üçün təhlükə həmişə ondan ibarət idi ki, ölkəni sürətli şəkildə və ya davamlı olaraq transformasiya edə bilməyın Paşinyan populizmdən yapışacaq, hansı populizm ki, onu hakimiyyətə gətirib. Budur, artıq gəlib çatmışıq".

**Öz növbəsində politoloq Elxan Şahinoğlu hesab edir ki, Köçəryanın azadlığa çıxması ən əvvəl Qarabağ klanının gücünün göstəricisidir:** "Ermənistanda bircə hakim tapılmadı ki, Köçəryanın həbs müddətini uzatsın. Çünki hakimlər Köçəryan və onun arxasındakı güclərin hazırki baş nazir Paşinyandan güclü olduğunu düşünür. Həmin hakim özünün və ailəsinin gələcəyini təhlükə altına atmamaq üçün belə qərar çıxarıb. Bu cür yalnız Köçəryanı həbsdən azad edən hakim düşünmür".

**Analitik ikinci səbəb kimi Rusiya amilinin Ermənistanda və Dağlıq Qarabağda gücünü göstərib:** "Köçəryanın həbsi onun dostu - Rusiya prezidenti Vladimir Putini narahat edirdi. Putin bir neçə dəfə Paşinyana mesaj göndərmişdi ki, dostumu azad et. Paşinyan hər dəfə bunu qulaqardına vururdu. Ancaq məhkəmə qulaqardına vurmadı, Paşinyanın yox, Rusiyanın maraqlarını nəzərə aldı. Köçəryanın azad edilməsi həm də Putinin Paşinyan üzərində qələbəsidir. Üçüncüsü, Köçəryanın həbsdən çıxması Ermənistanda Paşinyanla Köçəryan arasındakı mübarizənin yeni və gərgin mərhələyə qədəm qoyacağını göstərir. Köçəryan ətrafında anti-Paşinyan qüvvələrini cəmləşdirəcək. Köçəryan iki gücün - Moskvanın və Xankəndindəki separatçıların dəstəyinə arxayındır".

**Politoloq onu da xatırladır ki, Rusiyanın İrəvandakı hərbi bazasındakı generalların və kəşfiyyat xidmətinin Ermənistan ordusundakı dostları az deyil:** "Paşinyan cəmi 1 ildir hakimiyyətdədir və bu müddətdə orduda təmizlik işi apara bilməyib. Ona görə də ordudakı generallar da bir gün ona qarşı çıxa bilərlər".

**E.Şahinoğlunun fikrincə, Ermənistandakı son hadisələr Azərbaycanda 1990-cı illərin hadisələrini xatırladır:** "O zaman erməni separatçıları Rusiyadakı havadarlarının dəstəyi ilə Azərbaycandakı siyasi xaosdan və hakimiyyət boşluğundan istifadə edərək torpaqlarımızı işğal etdilər. İndi biz də Ermənistandakı və Dağlıq Qarabağdakı hadisələri diqqətlə izləyib yaranan fürsətdən istifadə etməyə çalışmalıyıq".

*****

Yeri gəlmişkən, İrəvanda qarışıqlığın başlaması ilə Azərbaycan ordusunun növbəti genişmiqyaslı hərbi təlimləri üst-üstə düşür. Nə bilmək olar, bəlkə elə işğalçı ölkədəki proseslər torpaqlarımızın güc yolu ilə azadlığına bir vəsilə, tarixi fürsət olacaq? Axı politoloqun da qeyd elədiyi kimi, ərazilərimiz məhz Azərbaycandakı siyasi qarışıqlıq zamanı düşmənin nəzarətinə keçib. Niyə də eyni şəkildə şansdan yararlanıb torpaqlarımızı geri almayaq? Təcavüzkar ölkədəki gərginlik Azərbaycan ordusunun yeni və uğurlu blits-hərbi əməliyyatları üçün unikal şans yarada bilər...

***P.S.** Qəzet çapa gedərkən Ermənistanda gərginlik davam edirdi.*

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

**Krımın işğalından dərhal sonra bir çox sahələrə tətbiq edilən sanksiyaların vurduğu ziyan aradan qaldırılmadan Rusiyaya qarşı Qərbin yeni sanksiyaları işə düşür. Rusiyanın demək olar ki, bütün böyük şirkətlərinə yeni sanksiyalar tətbiq ediləcək. Qərb, ABŞ artıq neçə ildir iqtisadi-siyasi sanksiyalarla Rusiyanı sıxışdırır. Qərb sanksiyalarla istəyinə nail ola biləcəkmi? Rusiyanı daha da sıxsalar Kreml regionda yeni münaqişə ocaqları yarada bilərmi?**



# ABŞ üçün Rusiya SSRİ-dən çətin rəqibə çevrilib - səbəblər

## Ekspert: “Rusiyanı iqtisadi sanksiyalarla sarsıtmaq mümkün olmayacaq...”

**Politoloq Əhəd Məmmədli** “Yeni Müsavat”a bildirdi ki, Rusiya kimi dərin dövlət ənənələrinə malik olan ölkəni sanksiyalarla sarsıtmaq o qədər də asan məsələ deyil: “Tək iqtisadi sanksiyalarla nə Rusiyanın bir dövlət kimi, nə də Putinin bir hakimiyyət kimi öhdəsindən gəlmək mümkün olacaq. Rusiyaya qarşı iqtisadi sanksiyalara, siyasi təzyiq və hərbi güc basqısı da əlavə edilsə, bəlkə o zaman hansısa sarsıdıcı təsiri ola bilər. ”Soyuq müharibə"nin sonlarında, o vaxt ki ABŞ prezidenti Reyqan Baltik dəniz sahillərinə atom daşıyıcı su altı qəmiləri göndərmişdi. O zaman Reyqan demişdi ki, Moskva ancaq güc dili ilə anlayır. Soyuq müharibə zamanından fərqli olaraq, indi Qərbdə Moskvaya baxış vahid, ümumi deyil. Heç ABŞ-ın özündə Kremllə necə davranılmalıdır münasibəti mərkəzləşdirilmiş deyil. Məsələn, ABŞ-ın indiki prezidenti Tramp Moskva ilə isti münasibətlərdə suçlanır, buna görə onu partiyadaşları belə impiçmentlə hədələyirlər. “Soyuq müharibə” zamanı belə şey mümkün idimi? Təbii ki, yox. Ötən əsrin ikinci yarısında Rusiya ilə əlaqələrdə şübhələnən siyasətçi ABŞ-ın prezidenti seçilə bilərdimi? Yox. Amma indi bütün bunlar baş verdi. Ona görə hazırda Rusiyanın üstünə getmək Amerika üçün daha çətindir".

**Ekspertə görə, üstəlik, NATO-nun özündə də Rusiyaya münasibət birmənalı deyil:** “Buraya əlavə etsək ki, Şimali Atlantik Alyansının əsas üzvlərinin bir-biriləri ilə müəyyən problemləri var, onda mənzərə bir az da qarışır və bu dumanlı mənzərə Rusiyanın xeyrinə görsənir. İndiki şəraitdə NATO-da yenə ən böyük güc ABŞ-dır, lakin Britaniya, Fransa, Almaniya və Türkiyənin ildən-ilə böyüyən ambisiyalarını da unutmayaq. ABŞ-ın Britaniya, Avropa Birliyi, Türkiyə ilə də problemləri var. ”Brexit" Britaniya ilə Avropa Birliyini üz-üzə qoyub. Fransa və Almaniyanın Türkiyə ilə münasibətlərində bəzi gərginliklər var. Trampın “Müdafiə olunmaq istəyirsizsə, pul ödəyin” sözlərindən sonra Fransa və Almaniya Avropa ordusu qurmaq istəyində bulundular. Gördüyünüz kimi, NATO özündə problemlər yaşayır. Və bu vəziyyət Rusiyanın tam xeyrinədir. “Soyuq müharibə”də olduğu kimi Moskvaya qarşı tam mərkəzləşdirilmiş şəkildə vahid cəbhə yoxdur.

Qərb hələlik sanksiyalarla istəyinə nail olmayıb, bu minvalla da nail ola bilməyəcək. Bu templə Rusiyanı nə iqtisadi, nə də siyasi cəhətdən sarsıtmaq olmaz. Qərbin fikirləşdiyi kimi Rusiya tək neft dövləti deyil. Bu ölkə dünyada müasir silahlara malik ordusu, böyük nüvə arsenalı olan dövlətdir. Bu arqumentlərə görə bütün baş verənlərə ciddi yanaşmaq lazımdır. İndiyə qədər tətbiq edilən iqtisadi sanksiyalarla Rusiyanı sarsıtmaq mümkün olmayacaq. Bunu tarix bir neçə dəfə sübuta yetirib. Sanksiyalar bütün spektrlərə genişlənmədən bu mümkün deyil".

**Politoloqun sözlərinə görə, Putin özlüyündə sanksiyaların təsirini hiss edərsə, ABŞ Rusiya ilə bağlı nələrəsə nail ola bilər:** “SSRİ-nin dağılmasının əsas səbəbi iqtisadi deyildi, siyasi idi, daha doğrusu, milli münaqişələrin alovlanması oldu. Bunun startı da Dağlıq Qarabağ konflikti ilə verildi. Özünü SSRİ-nin varisi sayan Rusiya Federasiyası da çoxmillətli bir ölkədir. Müstəqilliyə hər an yenidən hamilə olmağa hazır olan Tatarıstan və Şimali Qafqaz kimi hər an partlaya bilən bölgələri var. Milli münaqişələr Rusiya Federasiyası üçün də ”Domokl qılıncı" rolunu oynaya bilər. Təbii, bunda həm də ABŞ maraqlı olsa. Ən azı indiki vəziyyətdə inanmıram ki, ABŞ bunda maraqlı olsun. ABŞ Putin rejiminin devrilməsinə maraqlı ola bilər, lakin Rusiya Federasiyasının SSRİ-nin aqibətini yaşamasına ən azı tam olaraq, fikrimcə, maraqlı olmaz. ABŞ maraqlı olsa belə, Fransa, Almaniya və İtaliya buna getməzlər. Fransa, Almaniya və İtaliyanın sağ siyasi qüvvələrinin Rusiya ilə isti münasibətləri var. Avropanın sağçı liderləri açıq şəkildə Putinə simpatiyalarını bildirirlər. Hələ Avropaya rus qazının nəqli projeləri, geniş iqtisadi münasibətləri haqda demirəm".

**O ki qaldı sanksiyalardan sıxılan Moskvanın yeni münaqişə ocaqları alovlandırması məsələsinə, Ə.Məmmədli qeyd etdi ki, hər şey Kremlin əlində olsa öz xeyrinə region və dünyada yeni münaqişə ocaqları yaradar, lakin Moskvanın imkanları heç də hüdudsuz deyil:** “Rusiya Federasiyası SSRİ kimi nəhəng güc deyil. Düzdür, bəhanə verilsə, ruslar maksimum dərəcədə haralardasa hərarəti qaldıra bilərlər. Lakin bu hərarətin qaldırılması çoxmillətli, çoxproblemli, ildən-ilə daha çox sanksiyalara məruz qalan Rusiyanın özünə bumeranq kimi dəyə bilər. Necə ki, zamanında Əfqanıstana hərbi təcavüz edən SSRİ çox keçmədən özü milli münaqişələr burulğanında boğuldu”.

❑ **Etibar SEYİDAĞA,
“Yeni Müsavat”**

# Kim düz deyir: cəfakeşdirmi, artistdirmi?



**Xalid KAZIMLI**

**Hər hansı bir hadisəyə münasibətdə yekdil fikrə gəlməyimiz yoxdur. Bu, artıq mübahisə mövzusu deyil. Nə baş verir-versin, biz onu öz arşınımızla ölçürük və heç bir halda arşınımızın ədalətli ölçü meyarı olub-olmamasına önəm vermirik.**

Tanınmış şəxslərə, ictimai-siyasi personalara münasibətdə də eləyik. Ömrünü xalqın yolunda puç edən fədakar, dünya malında gözü olmayan, zahidanə həyat tərzi yaşayan adamlara belə kütləvi şəkildə ağız büzmə, bəyənməmə qabiliyyətinə malikik. Hətta nadir ələ düşən belə adamlara nisbətdə 50:50-yə bölünə bilərik.

Bir müddət belə gedəcək, amma gün gələcək, cəmiyyət “yaxşı nədir, pis nədir” sualına cavab verərkən ədalətli olmağı öyrənəcək. Belə getməz.

Bu günlərdə isə ictimai-siyasi fəallarımızın bir xeylisi jurnalist Fuad Abbasovun personasına münasibətdə bənzər şəkildə çaş-baş qalmış durumdadır. Adamı var gücü öyənlər də var, ürəkdən söyənlər də.

Bu üzdəndir ki, sosial şəbəkənin Azərbaycan seqmentinin fəalları Fuad Abbasova dair əsasən iki səpkili məlumat alır. Bir tərəf onu “ermənilərlə mübarizədə qanını qaşığa qoyan cəfakeş” adlandırır, başqa tərəf jurnalistin əslində “dələduz, artist biri” olduğunu iddia edir.

Başqa sözlə, onun tərəfdarları və əleyhdarları hazırda aktiv şəkildə piar aparmaqla məşğuldurlar və işin içərisində olmayan, Rusiyada yaşayan azərbaycanlıların problemini gendən-genə bilən, Fuad Abbasovla şəxsi tanışlığı olmayan yüz minlərlə adam çaşqın qalıb: kim düz deyir?

Aydın olan isə budur: İki tərəfdən biri yalan söyləyir. Heç ola bilməz ki, ikisi də düz desin. Yalnız o ola bilər ki, tərəflərin ikisinin də dediyi həqiqətin bir yarısıdır, digər yarısı yalandan ibarətdir.

Anormal olan isə “ermənilərlə mübarizə”nin bir şəxsin personası üzərində fokuslanmasıdır. İndi elə çıxır ki, Fuad Abbasov Rusiyadan deportasiya olunsa, “ermənilərlə mübarizə işi” yarımçıq qalacaq və biz bu cəbhədə vuruşmaq üçün ikinci bir jurnalist və ya politoloq tapıb ortaya çıxara bilməyəcəyik.

Eyni zamanda aydın olur ki, bir çox həmvətənlərimiz bir balaca şöhrətlənib, parlayıb önə çıxan, liderə çevrilmək istəyən şəxsin ayağından dartmaq, başından basmaq məsələsində çox pərgardırlar və həmin şəxsi xərcləməyin tərəfdarıdırlar.

Məsələnin başqa bir tərəfi isə bir neçə uğurlu televiziya çıxışından, parlaq müsahibədən sonra adı qulağına dəyən adamda həddindən artıq böyük ambisiyalar əmələ gəlməsi və bu iddiaların onu uçuruma aparmasıdır.

Uzun illərdir ki, xaricdə yaşayan həmvətənlərimiz bu cür, öz daxillərində qaynaya-qaynaya vaxt keçirir, bütün enerjilərini bir-birilə mübarizəyə sərf edir, sonucda nə özləri bir tərəfə çıxa bilirlər, nə də ölkənin, onun mühacir vətəndaşlarının problemlərinin həll istiqamətində effektiv iş görürlər.

Adam şübhələnir ki, bütün bu qovğa-mərəkələr heç də hamı üçün eyni dərəcədə əziz olan vətəninin mənafeyindən ötrü deyil, ortada şəxsi mənsəb və mənfəət davası var. Azərbaycanın marağı olan yerdə bir addım geriyə çəkilmək, öz şəxsi iddialarından vaz keçmək çətin olmamalıydı. Görürsən, vəziyyət gərgindir, konflikt dərinləşir, bir addım geri çəkilirsən, meydanı başqasına buraxırsan, o, uğurlu olursa, davam edir, o da uğur qazana bilmirsə, başqası gəlir. Bu cür davam edilərsə, sonda daha uğurlu, daha səriştəli komanda iş başına gələcək.

Fuad Abbasovla bağlı yaranmış məsələnin isə çox sadə həlli var. Bir adamın öz vətəninə qayıtması, deportasiya edilməsi faciə deyil. O qayıdar, öz ölkəmizdə bir işin qulpundan yapışar. Rusiyada sayı iki milyonu aşmış Azərbaycan diasporu isə öz içində yeni fuadlar yetişdirib ortaya çıxara bilər.

Bu işə hədər yerə bu qədər enerji, emosiya xərcləməyə dəyməz. “Ermənilərlə mübarizə” hələ uzun illər davam edəcəksə (belə görünür), deməli, meydana yeni, daha güclü qladiatorlar çıxarmaq lazımdır. Onsuz da bu döyüşə amfiteatrda oturub tamaşa edənlər həmişə çox olub, yenə də çox olacaqlar.

Səslənən sərt ittihamlar isə ya sübut olunmalıdır, ya da dilə gətirilməməlidir.

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019

# Məhəmməd Hadi küçəsində ağac kəsənlər cəzalandırıldımı...

## Sakinlər ərazidə abadlıq işləri aparıb, kəsilən ağacların yerinə yenilərini əkiblər...

**Bakıda dövlətin ciddi nəzarəti sayəsində ağacların kəsilməsi, qırılması halları azalıb. Hansısa məhəllə sakini hətta eyvanına uzanan, ona maneə yaradan ağacın budağını belə icazəsiz kəsə bilməz. Ekspertlərin fikrincə, indiki halda bu, olduqca yaxşı haldır. Çünki getdikcə əhalisi artan iri şəhərlərdə, paralel olaraq yaşıllığı da çoxaltmaq lazımdır. Ancaq bütün tapşırıqlara, göstərişlərə, cərimələrə baxmayaraq, yenə də ağacları kəsənlərə az da olsa rast gəlinir.**

Ötən həftələrdə Məhəmməd Hadi küçəsi, 93/99 ünvanında 100-dən çox ağacın kəsilməsi və köçürülməsini misal göstərə bilərik.

Bəs hazırda qeyd etdiyimiz ərazidə durum necədir? Ağacları kəsən sahibkar cəzalandımı?

Məlumat üçün qeyd edək ki, ağacların kəsildiyi ərəfədə “Yeni Müsavat” qəzetində çoxsaylı yazılar, reportajlar dərc olundu. Daha sonra müvafiq qurumların rəsmiləri əraziyə yolandılar. Mayın 8-də ərazidə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov da gedib, vəziyyətlə maraqlandı.

Öyrəndik ki, artıq ərazidə tamamilə yaşıllıq salınıb. Köçürülən ağaclar yerinə qaytarılmaqla yanaşı, yeniləri də əkilib. Sakinlərlə söhbətimiz zamanı onlar bildirdilər ki, məhəllədə uşaq, böyük, bir sözlə, hər kəs ağaclara qulluq edib onları qoruyurlar. Sakinlər həftə sonları iməcilik də təşkil edib, ərazini abadlaşdırmaq istiqamətində işlər görürlər. Sakinlərin sözlərinə görə, ərazidə yaşıllığın qorunmasına “İDEA” İctimai Birliyi tərəfindən də nəzarət var. Ağacı kəsənlərin aqibətinə gəlincə isə sakinlər söylədilər ki, həmin şəxslər polis tərəfindən aparılıb, barələrində qanunla müvafiq tədbirlər görülüb.

Hadisə cinayət tərkibi yaratdığından torpaq mülkiyyətçisi Həzrətəli Temirov (ərazi onun adına oğlu Rüstəm Temirov tərəfindən rəsmiləşdirilib) barəsində toplanmış araşdırma materialları qanunamüvafiq tədbirlərin görülməsi üçün Baş Prokurorluğa göndərilib.







**Lakin Rüstəm Temirov modern.az saytına açıqlamasında mövcud durumla razılaşmayıb. O bildirib ki, həmin ərazi onun şəxsi mülkiyyətindədir:**

“2012-ci ildə Ukrayna dairəsinin yaxınlığında mənim 24 sot çıxarışlı sənədi olan torpaq sahəm vardı. Məndən xahiş edildi və həmin torpağı dövlət fonduna verim. Həmin yerdə hərbçilər üçün bina tikilib. Düşündüm ki, dövlət üçün lazımdırsa, mən bunu etməliyəm. Məhəmməd Hadi küçəsi, 93/99 ünvanındakı torpaq da onun əvəzinə mənə Bakı Şəhəri İcra Hakimiyyəti tərəfindən verilib. Niyə mən qanuni mülkiyyətçisi olduğum torpaqla bağlı problem yaşamalıyam?! Mən istəyirəm ki, hər şey halallıqla olsun. Amma baxıram ki, elə ən böyük haqsızlığı, haramlığı mənə qarşı edirlər. Məni şantaj edirdilər ki, jurnalistləri çağırıb ağacları kəsdiyini deyəcəyik. Mən bütün bunlar ola bilər deyə, foto və videoçəkilişlər apardım...”

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən Məhəmməd Hadi küçəsində baş verənlərlə bağlı “Yeni Müsavat”a açıqlama göndərilib. Açıqlamada bildirilir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən vətəndaşların müraciətləri əsasında Bakı şəhərinin Xətai rayonu ərazisində, habelə Lənkəran və Quba regional meşə təsərrüfatı mərkəzlərində aparılmış monitorinqlər nəticəsində meşələrdə və xüsusi mühafizə olunan təbiət ərazilərində ağacların, kolların və digər yaşıllıqların icazəsiz kəsilməsi ilə təbiətə xeyli və külli miqdarda ziyan vurulması faktları müəyyən edildiyindən toplanmış materiallar araşdırılması üçün Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib:

“Baş İdarə tərəfindən aparılmış ilkin araşdırmalarla Bakı şəhəri Xətai rayonu, M.Hadi küçəsi 93 və 99 saylı binaların arasında əvvəllər sakinlər tərəfindən 0,24 hektar sahədə salınmış bağ sahəsində 25 ədəd ağac və kolun kəsilərək məhv edilməsi və digər 98 ədədinin isə başqa əraziyə köçürülməsi ilə təbiətə xeyli miqdarda ziyan vurulmasına şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 259.1-ci maddəsi ilə (qanunsuz ağac kəsmə) cinayət işi başlanılıb. Hazırda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən ibtidai istintaqı aparılan hər üç cinayət işi üzrə təqsirli şəxslərin dairəsinin müəyyən edilərək məsuliyyətə cəlb olunmaları, ətraf mühitə vurulmuş ziyanın ödətdirilməsi və nəticələrinin aradan qaldırılması istiqamətində zəruri tədbirlər davam etdirilir”.

Bildirilib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Baş Prokurorluq tərəfindən bundan sonra da bu kimi cinayətlərin törədilməsinə səbəb və şərait yaradan halların müəyyən edilərək aradan qaldırılması və bu sahədə baş verən neqativ halların qarşısının alınması məqsədilə zəruri tədbirlər görüləcək.

❑ **Əli RAİS,**
**“Yeni Müsavat”**

# Bakıxanovda güclü külək 8 binada vahimə yaşatdı

## “Uğur-2" yaşayış kompleksində gecə yarısı qopan alkoponlar maşınların üzərinə düşüb ziyan vurdu, dəmir konstruksiyalar evlərin pəncərələrini qırdı, sakinlərə kompensasiya sözü verildi; güclü külək bölgələrdə də fəsadlar törədib









**Bakıda mayın 19-dan 20-nə keçən gecə başlayan güclü külək Bakıxanov qəsəbəsində yerləşən “Uğur-2" yaşayış kompleksində sakinlərin yuxusuna haram qatıb, kabusuna çevrilib.**

“Yeni Müsavat” xəbər verir ki, sakinlərin əksəriyyəti gecənin yarısından səhərə qədər qorxusundan yatmayıblar. Buna səbəb güclük küləyin 20 mərtəbəli binalarda alkopon üzlükləri qoparıb yerə tullaması, pəncərələrin şüşələrinin qırılaraq çilik-çilik olmasıdır.

Bir aya yaxındır üzlükləri sökülən “Uğur-2" kompleksinə daxil olan binaların alkoponları küləyin təsirindən qopub. Belə ki, külək binaların üzlüklərini qopararaq maşınların üzərinə atıb. Bir neçə avtomobilə ciddi ziyan dəyib.

Dəmir konstruksiyalar küləyin təsirindən yellənərək bəzi evlərin pəncərəsini də sındırıb. Sakinlərə dəyən ziyanın “Akkord” tərəfindən qarşılanacağına söz verilib.

Hazırda 2-ci binanın qopan alkoponları və qırılan şüşələri yola tökülüb deyə əsas giriş bağlanıb. Sakinlər çıxış istiqamətindən gedib-gəlirlər.

Kompleksdə hələlik 1-ci və 2-ci binaların alkopon üzlükləri söküldüyü üçün təhlükəsizlik tədbirləri görülüb, “fanerka”larla hər yer örtülüb ki, insanların başına düşməsin.

Amma güclü külək davam edərsə, qopub sallanan alkoponların maşınlara yenə də ziyan vuracağı, mənzillərin pəncərələrini sındıracağı təhlükəsi istisna deyil.

Buradakı mağazaların işləri də məhdudlaşıb. Sakinlər bildirirlər ki, tezalışan üzlük olan alkoponların sökülməsi düzgün addımdır, di gəl işlər nizamla görülməlidir, kiminsə həyatına, əmlakına ziyan vurmamalıdır.

Onu da deyək ki, Bakının Nizami rayonunda yerləşən “Diqlas” Ticarət Mərkəzindəki yanğın binaların tezalışan üzlüklərlə üzlənməsi məsələsi ilə bağlı hərəkətlənməyə səbəb olub. Çünki alkapon üzlük tezalışan materialdır və nə vaxtsa qarşısıalınmaz bir faciəyə səbəb ola bilərdi.

“Diqlas” Ticarət Mərkəzinin yanması, ətrafdakı alkapon üzlüklü obyektlərin külə dönməsi “Uğur-2" ilə bağlı real addım atmağa vadar edib. 2000-dən çox sakinin yaşadığı 20 mərtəbəli 8 binanın bütün alkaponları söküləcək.

8 binanın bir-bir alkaponlardan azad edilməsi xeyli vaxt alacaq. Onlar ümid edirlər ki, sentyabra qədər söküntü işlərini yekunlaşdıracaqlar.

Amma bu iş o qədər də asan görünmür və ilin sonuna kimi uzanacağı istisna edilmir. Bundan sonra binaların fasadlarının hansı materialdan olacağına hələ qərar verilməyib.

Bəzi versiyalara görə, əvvəlki qaydada fasadlar rənglənəcək. Lakin başqa üzlüklərin vurulması da nəzərdən keçirilir.

Bildirilir ki, alkoponlar söküldükən sonra mənzillərin çıxarışları (kupça - E.S.) sakinlərə paylanacaq. Hətta iddialar var ki, alkaponların sökülməsi şərt kimi qarşıya qoyulub, yalnız bu halda “kupça”lar şirkətə verilə bilər.

Bu qərar isə sakinlərin ürəyincədir. Onlar deyirlər ki, həm çıxarışların verilməsi prosesi sürətlənəcək, həm də təhlükəsizlik tədbirlər görülür.

Sakinlər bildirirlər ki, bu alkaponlar binalara xüsusi yaraşıq versə də, əsas məsələ insanların təhlükəsizliyidir.

Qeyd edək ki, 2015-ci ilin mayında Binəqədi rayonu, Azadlıq prospekti 200/36 ünvanda yerləşən çoxmərtəbəli yaşayış binasında baş vermiş məşum yanğın hadisəsində böyük itkilərin olması da məhz çoxmərtəbəli binanın tezalışan - poliuretan adlı materialla üzlənməsi ilə əlaqələndirilmişdi.

İstintaqın gəldiyi, sonradan məhkəmə hökmü ilə bərkidilən qənaətə görə, binanın üzlüyü tezalışan kimyəvi birləşmələrdən ibarət olub və yanarkən zəhərli qazlar ayrılıb.

Binanın üzlük materialında başlayan yanğın bir anın içində böyük bir ərazini əhatə edib, sakinlərin bir hissəsi binadan çıxmağa imkan tapmayıblar.

2015-ci ildəki məşum olaydan 3 il 10 ay sonra Bakının Nizami rayonunda “Diqlas” Ticarət Mərkəzi az bir müddətdə alışıb kül oldu.

Olaydan sonra yenə də məlum oldu ki, binanın kibrit çöpü kimi bir anının içində yanıb külə dönməsinin səbəbi üzlük materialdır.

Hazırda dünya bazarında bir neçə cür alkapon materialdan olan üzlüklər var. Yanğına davamlı və heç yanmayan alkapon materiallı üzlüklər nisbətən baha olduğundan Azərbaycan bazarına əsasən Çin istehsalı olan və tez alışan alkopon üzlüklər gətirilir. Bakıda yaşayış və iaşə obyektlərinin az qala 70-80 %-i bu üzlüklərlə üzlənib.

Qeyd edək ki, güclü külək Göyçay və İsmayıllıda da evlərin dam örtüyünə, meyvə ağaclarına zərər vurub.

İri gövdəli ağacların aşması nəticəsində elektrik naqilləri qırılıb, gecə saat 23:00 radələrində İsmayıllı və Göyçay şəhərlərinə, kəndlərə elektrik enerjisinin verilişi dayanıb.

Hazırda əhalinin enerji ilə təmin edilməsi, küçələrə və həyətyanı sahələrə aşan ağacların götürülməsi üçün tədbirlər görülür. İsmayıllı şəhər məzarlığında iri gövdəli ağacın aşması nəticəsində 10-a yaxın qəbir daşı dağılıb. Güclü külək Zaqatalada da bir sıra fəsadlar törədib.

Rayon mərkəzi daxil olmaqla, bir çox ərazilərdə ağaclar aşıb, elektrik və rabitə xətləri qırılıb. Bir neçə yaşayış binasının və fərdi evlərin dam örtüyünü külək aparıb.

❑ **Emil SALAMOĞLU**
**“Yeni Müsavat”**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





**Belə görünür ki, işğalçı Ermənistan növbəti inqilaba "hamilədir". Bunu demək üçün Ermənistanda son günlər baş verən proseslərə nəzər salmaq kifayət edər. Qeyd edək ki, Köçəryanın azadlığa buraxılmasından sonra baş nazir Nikol Paşinyan inqilabın "ikinci mərhələsinin" başladığını elan edərək, 20 mayda tərəfdarlarını məhkəmələrin qarşısına çağırmışdı.**


Qafar Çaxmaqlı

# Ermənistan və Qarabağ ermənilər arasında didişmə

## İrəvanda küçə mübarizəsinin növbəti mərhələsi başladı; Paşinyan yenə öz tərəfdarlarına səsləndi; **ermənişünas alim:** "Proseslərin ciddi qarşıdurmaya keçməsi ehtimalları böyükdür..."

Həftənin ilk günü səhər saatlarından etibarən Ermənistan baş nazirinin çağırışı əsasında onun tərəfdarları məhkəmə binalarına giriş və çıxışları qapatmağa başlayıblar. Belə ki, Ali Məhkəmə Şurası, Konstitusiya Məhkəməsinin girişləri qapadılıb. Xüsusilə Robert Köçəryanı azadlığa buraxan məhkəmə qarşısına daha çox insan toplaşıb. Etirazçılara Ermənistanın Dövlət Nəzarəti Xidmətinin sədri David Sanasaryan da qatılıb.

Az sonra Ermənistan baş naziri də İrəvandakı məhkəmələrinin qarşısına toplaşanların yanına yollanıb. "Mən bütün çağırışlarıma reaksiya verən həmvətənlərimə təşəkkür etmək istəyirəm. Ümid edirəm ki, yağışın altında xəstələnməyəcəksiniz. Sizi sevdiyimi, sizinlə fəxr etdiyimi və qarşınızda baş əydiyimi demək istəyirəm" - Paşinyan öz müraciətində bildirib.

N.Paşinyanın xalqa müraciətinin çıxılmazlıqdan irəli gəldiyi bəllidir. Təbii ki, baş nazir özünün ən qorxulu rəqibini həbsdən buraxmaq istəməzdi. Burada sözsüz ki, Rusiya faktoru öz sözünü deyib. Amma hakimiyyət daxilində, xüsusilə də məhkəmə sistemində Rusiyaya, o cümlədən məhkəmə-hüquq sistemində Qarabağ klanına, Serj Sərkisyan və Robert Köçəryana bağlı şəxslərin olması şübhəsizdir. Bu mənada Paşinyan onları silib-süpürmək üçün hərəkətə keçib. Ancaq "daş qayaya rast gəlib". Hər halda, paralel olaraq qarşı tərəfin hərəkətə keçməsi Paşinyana yaxşı perspektiv vəd etmir.

Hər halda, Köçəryanın azadlığa çıxması Paşinyana qarşı güc nümayişidir. Erməni baş nazir tərəfdarlarını küçələrə çağırdığı zaman Köçəryan tərəfdarları da məhkəmə binasında revanşa hazır görünürlər.

İşğalçi ölkədə gərginliyin, vətəndaş qarşıdurmasının artdığını təsdiqləyən digər məlumatlara da diqqət yetirək. Bazar günü İrəvanın Avan rayonunda polis Qarabağ separatçılarının "təhlükəsizlik şurası"nın rəhbəri Vitali Balasanyanın avtomobilini saxlayıb. Axar.az xəbər verir ki, Balasanyanın avtomobilini saxlayan şəxslər avtomatlarla silahlanıblar. Onun avtomobilinin qanunsuz silah daşıma bəhanəsi ilə saxlanıldığı bildirilib. Balasanyanın avtomobilinin bir müddət sonra buraxıldığı bildirilib. Qeyd edək ki, Balasanyan bundan öncə İrəvanla Qarabağın separatçı və qondarma qurumu arasında baş verən qarşıdurmada əsas aparıcı sima olub.

Qarabağ separatçılarının güc nümayişinin növbəti bir təsdiqi isə oyuncaq seçkilərlə əlaqədardır. Azərbaycan torpaqlarında qondarılmış separatçı-terrorçu rejimin keçmiş "dövlət naziri" sayılmış Araik Arutyunyan ad-soyadlı məxluq 2020-ci ildə keçirilməsi nəzərdə tutulan qanunsuz " "prezident" seçkiləri"nə hazırlıqla bağlı görüş keçirib (Moderator.az). "Prezident"liyə namizədliyini irəli sürmüş A.Arutyunyan Qubadlı rayonunun "İşxanadzor" adlandırılmış Xanlıq kəndində keçirdiyi görüşdə bir sıra vədlər verib. O cümlədən bildirib ki, rejimin "hazırkı iqtisadi inkişaf səviyyəsi hər bir "vətəndaş"ın pulsuz və keyfiyyətli tibbi xidmət almasına şərait yaradır"...

Belə görünür ki, Şuşanın işğal günündə Qarabağ ermənilər ilə yallı getməsi N.Paşinyanın işinə yaramayıb. Kremldən təlimat alan separatçılar geri çəkilmək niyyətində deyillər və baş naziri yerində oturtmağa qərarlı görünürlər. Paşinyan hətta Şuşaya gələndə bəzi separatçılara sərt təpinmişdi. Ancaq müşahidələr göstərir ki, qarşı tərəf də geri çəkilmək istəmir, hətta İrəvanın mərkəzində Paşinyana meydan oxuyur.

**"Ermənistan və Qarabağ xalqları arasında düşmənçilik, parçalanma və ziddiyyət yaratmaq istəyən korrupsiyalaşmış sistemin təmsilçisi olan qüvvələr var", - deyə,Paşinyan narahatlıqla bildirib. Onun sözlərinə görə, Qarabağ erməniləri Ermənistandakı korrupsiyalaşmış sistemdən daha çox əziyyət çəkiblər. O deyib ki, Ermənistandakı keçmiş hakimiyyət nümayəndələri Qarabağdakı əlaqələrindən Ermənistan baş naziri və hakimiyyəti haqqında yanlış məlumatlar yaymaq üçün istifadə edir. Paşinyan bu qüvvələrin hərbi fəaliyyətləri provokasiya edərək, əraziləri Azərbaycana verməyə və bunun da məsuliyyətini İrəvanın üzərinə atmağa çalışdıqlarını bildirib:** "Mən bunu dövlətə xəyanət hesab edirəm. Mən bu cür niyyətlərin qarşısını almaq üçün sərt metodlar tətbiq edəcəyəm. Artıq 2016-cı il aprel müharibəsi ilə bağlı vəziyyəti öyrənmək üçün parlament qrupu yaratmağın vaxtı çatıb". O, Qarabağ ermənilərini Ermənistan hökumətinə inanmağa çağırıb.

Göründüyü kimi, N.Paşinyan növbəti dəfə vəziyyətdən çıxmaq üçün "Qarabağ kartı"ndan istifadə etməyə çalışır. Əslində onun sələfləri də daim Qarabağ məsələsindən istifadə edərək hakimiyyətlərini davam etdiriblər.

**Məsələ ilə bağlı politoloq Qabil Hüseynli "Yeni Sabah"a açıqlamasında deyib ki, Ermənistanda baş verənlər əslində erməni xalqının təhqir edilməsidir:** "Çünki Putinin 3 maddə ilə həbsə atılmış Robert Köçəryana təbrik məktubu göndərməsi, daha sonra həbsxanaya onun yanına getməsi Paşinyanı da, Ermənistanı da təhqir deməkdir. Bu o deməkdir ki, Rusiya Ermənistanın müstəqilliyinə, suverenliyinə barmaqarası baxır və onun səlahiyyətlərini öz quberniyalarının birinin səlahiyyətlərindən də az hesab edir. İndi etirazçılar Ali Məhkəməni mühasirəyə alıblar. Amma bunlar Paşinyanın elektorat bazasına daxil olan adamlardır. Onlar, sadəcə olaraq, Köçəryanın yenidən həbsə qaytarılmasını tələb edirlər. Hadisələrin hara doğru inkişaf edəcəyini söyləmək çətindir. Aydındır ki, əgər Köçəryan azadlığa buraxılıbsa, Sərkisyan da hadisələrə kənardan dəstək verirsə, bütün Qarabağ klanı ayaq üstədir və Ermənistanda ciddi qarşıdurma prosesi gedir. Bu proseslərə müqavimət göstərilməzsə, böyüyüb toqquşmalara gətirib çıxara bilər. Görünən odur ki, Ermənistanda antirus əhval-ruhiyyəsi sürətlə genişlənir. Putinin bu hərəkəti Ermənistanın heysiyyətinin tapdanması kimi qiymətləndirilir. Gələcək bundan daha koloritli hadisələrin meydana çıxacağına şəhadət verir".

**"Ermənistanda baş verənlər Qarabağ danışıqlarına təsir edə bilərmi" sualını Q.Hüseynli belə cavablandırıb:** "Onsuz da Dağlıq Qarabağ danışıqları formal xarakter daşıyırdı. Ermənistanda baş verənlər Qarabağ danışıqlarının pozulmasına da gətirib çıxara bilər. Amma baş verən hadisələr hələ Paşinyanın hərəkətlərini tam iflic vəziyyətə salmasına şərait yaratmır. Buna görə də Nyu-Yorkda nəzərdə tutulan görüşün baş tutacağını gözləmək mümkündür".

**Ermənişünas alim Qafar Çaxmaqlı isə "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda baş verənləri müntəzəm şəkildə izləyir**: "Səhər saatlarında Paşinyanın çağırışı ilə məhkəməyə gedən bütün yollar kəsilib. Hakimlərdən biri pəncərədən içəri girmək istəyib. Xalqın qarşısına çıxan Paşinyan deyib ki, biz Köçəryanın azad edilməsinə imkan verməyəcəyik! Vəziyyət getdikcə gərginləşə bilər. Amma vəziyyətin nəzarətdən çıxması hələ ki mümkün deyil və ermənilər keçən il olduğu kimi Paşinyanı müdafiə etmək üçün meydanlara tökülürlər. Birbaşa yayında "Azatutyun" radiosu məsələnin araşdırılması ilə bağlı reportajlar verir. Gözləyək, görək nə olar. Bura toplaşanlar indi yeni konstitusiya dəyişiklikləri tələb edirlər. Onlar hüquq-mühafizə sisteminin də baş nazirə tabe olmasını istəyirlər".

Bəzi müşahidəçilər hesab edir ki, Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında yaranmış bu gərginlik Azərbaycan üçün torpaqlarını azad etmək şansı yaradır. Xatırladaq ki, 90-cı illərin əvvəllərində Azərbaycan daxilində qarşıdurmaların güclənməsi, siyasi qüvvələrin hakimiyyət uğrunda mübarizə aparması torpaqlarımızın müdafiəsiz qalması ilə nəticələndi və Ermənistanın əlinə fürsət düşdü. Elə bu yaxınlarda Ermənistanın eks-prezidenti Serj Sərkisyan hakimiyyətdən devrildikdən sonra ilk dəfə jurnalistlərə danışıb. Ötən gün o, Şuşanın işğalı münasibətilə keçirilən bayram tədbirlərinə qatılaraq Ermənistanın ictimai televiziyasının müxbirinin 27 il əvvəl baş verənlər haqda suallarını cavablandırıb. Sərkisyan da təsdiq edib ki, Şuşanın ələ keçirilməsinin başlıca səbəblərindən biri heç də ermənilərin şücaəti ilə bağlı deyildi, Azərbaycan tərəfdə hökm sürən siyasi oyunlar, xəyanət və yararsız hərbi rəhbərliklə əlaqəli idi. S.Sərkisyan deyib ki, Azərbaycanda o vaxt sadəcə olaraq daxili siyasi didişmələr, tam xaos hökm sürürdü. "Bu da bizə çox kömək etdi" - o deyib.

**Q.Çaxmaqlı deyib ki, Azərbaycan belə durumları diqqətlə izləməli, hansı situasiyada hansı siyasəti yürütməyi bilməlidir:** "Paşinyan indi ona qarşı olan bir sıra qüvvələrin üstünə gedəcək və təbii ki, qarşı tərəfdən dirəniş olacaq. Proseslərin ciddi qarşıdurmaya keçməsi ehtimalları böyükdür. Məncə, indi Azərbaycan müharibə ritorikasını artırmalı və hətta bir neçə yerdə məhəlli döyüşlərin baş verməsinə çalışmalıdır. Bu, istər-istəməz Ermənistanda reaksiyaya səbəb olacaq". Ancaq ekspertimiz bildirdi ki, məqam yetişərsə, Ermənistana zərbə vurulması da mümkündür.

Hələ ki Azərbaycan sülh prosesinə sadiqlik nümayiş etdirir. Ancaq diqqəti daxildəki proseslərdən yayındırmaq üçün düşmənin təxribatlara əl atması da gözləniləndir. Bu isə Azərbaycan ordusu üçün şans yarada bilər...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019

# Hələ başlamayan İran-ABŞ müharibəsinin fəsadları

## Elxan Şahinoğlu: “Üçüncü qüvvə təxribat etməsə, Fars körfəzində müharibə olmayacaq...”

**İran və ABŞ qarşıdurması pik nöqtəsinə yaxınlaşıb. Heç də istisna deyil ki, Vaşinqton İran probleminin hərbi həllinə qərar versin. Bununla yanaşı, indiki mərhələdə ABŞ kimi rəqibə qarşı durmaqdan ötrü Tehranın hərbi-texniki gücü açıqca yetərli deyil.**

İndi hamı həyəcanlanıb: Fars körfəzində qaynar münaqişə alovlanacaqmı? İran səudlarla vuruşacaqmı? İş ABŞ və Tehran savaşına qədər gedib çıxacaqmı? Yəni olmayan müharibənin sualları, gərginliyi günlərdir yaşanmaqdadır. Hələ bir neçə ay qabaq “Şimali Koreya və ABŞ arasında nüvə savaşı qopacaq” nidaları səslənirdi. Bəs nəticəsi nə oldu? Məsələ yoluna qoyuldu.

Tramp bir yandan Tehrana qarşı ard-arda sanksiya qoyur və hərbi gəmiləri Fars körfəzinə yığır, o biri yandan isə açıq deyir: “Mənə zəng edin!”

“Bu, zarafat deyil”, Tramp bildirib: “İran sıradakını etməlidir: qoy mənə zəng etsinlər, oturaq, danışaq və ədalətli saziş bağlayaq. Biz İrana ziyan vurmaq istəmirik”.

Aydındır ki, Tramp Tehranı yalnız iqtisadi və diplomatik həmlələrlə diz üstə qoymaq cəhdini davam etdirəcək.

Beynəlxalq balanslar da İranın xeyrinədir. Tramp bir il qabaq İranla nüvə sazişindən çıxanda Avropa Birliyi (AB) sazişin saxlanması uğrunda təkidlə çıxış edib. AB xarici işlər nazirləri lap bu günlərdə Brüsselə yığışıb və bəyanat veriblər: “Biz sazişi qətiyyətlə dəstəkləyirik”.




Təhlilçilərin fikrincə, sonda İranın Çinə verdiyi neftin miqdarının məhdudlaşdırılması və ya sıfırlanması tələb olunur. ABŞ öz yolunu cızmaqdan öncə Çini iqtisadi baxımdan qəti nəzarət altına almağı düşünməkdədir. İrana təzyiqlər də Çinə gedən yolu açmaqdan ötəridir.

**Politoloq Elxan Şahinoğlunun “Yeni Müsavat”a bildirdiyinə görə, ABŞ-la İran arasında psixoloji savaş gedir. Siyasi şərhçi hazırkı situasiyada tərəflərin bir - birinə təzyiq göstərdiyini dedi. E.Şahinoğlu hesab edir ki, üçüncü tərəfin təxribatı olmasa, körfəzdə müharibə olmayacaq:** “İran da Vaşinqtona iki ay vaxt verib ki, nüvə anlaşmasına qayıtmasaq, uran zənginləşdiriləcək. Bu gün qüdrətinə görə Amerika üstündür. Bir qığılcım yaranarsa, toqquşmalar baş verə bilər. Əslində Səudiyyə tankerlərinə hücum olub və bunu kimin etdiyi bilinmir. Görünür ki, kimlərsə müharibənin başlamasında maraqlıdır. Eyni zamanda İranda mühafizəkarların mövqeyi ABŞ-a sərt cavab verməkdən ibarətdir. Amerika istəyir ki, İranı iqtisadi yolla çökdürsün və rejim dəyişsin. Lakin İran Suriya, Misir deyil”.

**E.Şahinoğlunun fikrincə, Trampın strategiyası əvvəlcə hədələmək, sonra rəqibi danışıqlar masasına oturtmaqdır:** “Şimali Koreya məsələsini düz xatırlatdınız. Onda da Tramp gəmilərini göndərdi, sonra danışıqlar getdi, yumşalma oldu. Eyni siyasəti İrana qarşı aparır. İran isə Şimali Koreya deyil. Ümumiyyətlə, üçüncü qüvvə təxribat etməsə, Fars körfəzində müharibə olmayacaq”.

**Qeyd edək ki, mayın 20-də ABŞ prezidenti Donald Tramp İranı Vaşinqtonun ünvanına təhdidlərə son verməyəcəyi halda bunun ağır nəticələri olacağı barədə xəbərdarlıq edib. Bu barədə ABŞ prezidenti twitter hesabında yazıb:** “Əgər İran döyüşmək istəsə, bu, İranın rəsmi sonu olacaq. Bir daha heç vaxt Birləşmiş Ştatları təhdid etməyin”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Başıbəlalı Misir turizmi...

## Azərbaycandan Misirə turpaketlərin şərtləri

**Dünyanın ən populyar turizm mərkəzlərindən biri olan Misirdə növbəti dəfə turistlərin xəsarət alması ilə nəticələnən qəza baş verib. Belə ki, piramidaların yaxınlığında turist avtobusunda partlayış olub.**



Hadisə Yeni Misir Muzeyi yaxınlığında baş verib. Turistləri gəzdirən avtobus naməlum şəxslər tərəfindən partladılıb. İlkin məlumatlara görə, azı 16 nəfər yaralanıb, xəsarət alanların çoxunun xarici vətəndaş olduğu bildirilir. Xatırladaq ki, 2015-ci ildə Şarm-əl Şeyxdən Sankt-Peterburqa uçan Rusiyaya məxsus sərnişin təyyarəsi havaya qalxdıqdan 23 dəqiqə sonra 224 nəfərlə birgə Sinay yarımadası yaxınlığında yerə düşmüş və 224 nəfərin hamısı həlak olmuşdu. Əvvəlcə qəza ehtimalı verilən hadisəni sonradan İŞİD öz üzərinə götürmüşdü. Lakin Misir və Rusiya rəsmilər inadla bu hadisənin texniki nasazlıqdan baş verdiyini irəli sürərək, iddiaları təkzib etmişdilər.

Bu mənada başı bəlalı Misir turizminin qurbanları da az deyil. Bəs görəsən, azərbaycanlılar arasında Misir turları populyardırmı?

Mətbuatda gedən rəsmi xəbərlərə nəzər salsaq, Azərbaycan-Misir arasındakı danışıqlarda qarşılıqlı turizm əlaqələrinin qurulması hər zaman əsas mövzulardan biri olub. Hətta zaman-zaman Azərbaycandan Misirin ən böyük turizm mərkəzi olan Şarm əl-Şeyx şəhərinə nümayəndə heyəti də gedib.

Bundan əlavə, turizm şirkətləri də hazırda Misirin Şarm əl-Şeyx şəhərinə 1 həftəlik turlar təşkil edirlər. Paketə 1 nəfər üçün Tiflisdən aviabilet, 4 ulduzlu hoteldə gecələmə, gündə 5 dəfə qidalanma, transfer, səyahət sığortası daxildir. Qiymət təxminən 670-710 manat arasında dəyişir. “50tour” turizm şirkəti ilə əlaqə saxlayıb, turpaketin şərtləri ilə yaxından tanış olduq. Şirkətdən bildirdilər ki, 640 dollar ödəməklə iki nəfər gündə 5 dəfə qidalanma da daxil olmaqla 3 ulduzlu hoteldə 1 həftə dincələ bilər. Bu müddət ərzində turistin baş verə biləcək bədbəxt hadisələrdən sığortalanması üçün səyahət sığortası da tətbiq edilir.

“Terra Travel” şirkətinin saytında yer alan məlumata görə, Şarm əl-Şeyx şəhərinin gözəlliyi turistlərin simpatiyasını çoxdan qazanıb. Şarm əl-Şeyx nadir güllərin qeyri-adi, qəribə gözəlliyini, geniş çəmənliklərin yaşıllığını, hündür ağacların və palmaların bolluğunu özündə birləşdirir. Qızıl qumlu çimərliklər bütün il boyu Misirin qonaqlarını sevindirir. Hətta qışda belə dənizdə çimmək olar, belə ki, suyun temperaturu +20-22 dərəcədən aşağı düşmür. Şarm əl-Şeyx qədim tarixə və çoxlu sayda abidələrə malik olan şəhərdir. Çoxlarında şəhərin adı ən maraqlı və çoxsaylı ekskursiyaların təşkil olunduğu Müqəddəs Yekaterina monastırı ilə bağlı assosiasiyalar oyadır. Şarm əl-Şeyx hərtərəfli istirahət üçün mükəmməl yerdir. Burada həm idmanla məşğul olmaq, həm dəniz faunasının gözəlliyinə tamaşa etmək, həm də məşhur mərcan parkı Ras-Məhəmmədə gəzintiyə çıxmaq olar.

**“Fly travel” turizm şirkətinin rəhbəri Mamed Əliyev “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, Misir gözəl turizm imkanları olan bir ölkədir və hər zaman Azərbaycanda bu ölkəyə səyahətlə bağlı tələbat olub:** “Terror hadisələrinin olması, Misirin müharibəyə meylli dövlət olması insanları bir qədər qorxutsa da, hazırda bu ölkəyə gedənlər var. Qış fəslində tələbat daha çox olur, yay aylarında orada isti çox olur. Bakıdan birbaşa Misirə uçuşu ləğv etdilər, ancaq Tiflisdən uçuş var. Misirin dənizi var, ehramları var. Turistlər Qahirəyə gedib qayıdırlar. Gündə 3-5 dəfə qidalanma daxildir. Gedənlər bəyənirlər, qiymətlər də elə bahalı deyil. 1 həftəlik 2 nəfərlik turpaket 700-800 dollara başa gəlir.

“Gerso Travel” və “Selfie Travel” şirkətlərinin yaydığı yeni elanda isə 18 iyuldan Bakıdan Şarm əL-Şeyx istiqamətində birbaşa uçuşların başlayacağı bildirilir. Uçuşlar hər həftənin cümə axşamı həyata keçiriləcək. Qiymətlər tarixlərdən asılı olaraq 7 gecə/8 gün 2 nəfərlik otaqda 1 nəfər üçün 408 USD-dən başlayır. Qiymətə təyyarə bileti, qidalanma (hər şey daxil), hotel, transfer, sığorta və əlavə olaraq Şarm əl- Şeyx ekskursiyası daxildir.

Qeyd edək ki, dünyaca məşhur “Rixos Hotels” şəbəkəsinin də Misirdə daha üç mehmanxana açacağı ilə bağlı məlumatlar var. Körfəz ölkələri mətbuatında çıxan xəbərlərə görə, Rixos, Misirdə 3 hotel ilə şəbəkəsini böyütməyə qərar verib və bu ölkədəki hotel sayını 6-ya yüksəltmək üçün işə başlayıb. Bu hotellər Xurqada, Qahirədə və Marsa Alam şəhərində olacaq.

Bu xəbərdən də göründüyü kimi, Misir turizmi inkişaf edib və orada gəlir əldə etmək imkanları genişdir. Son statistik məlumata görə, Misirdə ÜDM-in 20 faizini turizm gəlirləri təşkil edir. “El Ahram”ın üçüncü illik konfransında çıxış edən bu ölkənin turizm naziri Rania Al-Mashat Misirin ümumdaxili məhsulunun 20 faizinin turizmdən daxil olduğunu bildirib. O qeyd edib ki, turizm sektorundakı şirkətlərlə, o cümlədən sektorun əhəmiyyətini artıran 70-ə yaxın kənar sənaye firmaları ilə əlaqəli olaraq çalışırlar. Al Mashat, 2018-ci ilin ilk rübündə Misiri ziyarət edən turist sayının 2017-ci illə müqayisədə 30 faiz artdığını və turizmin hazırda da ölkə iqtisadiyyatının ümumi gəlir qaynaqlarının 15 faizini təşkil etdiyini bildirib.

Misir Turizm Federasiyasının keçmiş prezidenti Elhami əl-Zayat turizm tarixini qiymətləndirərkən bildirib ki, 2010-cu ildə turizm sektoru çox böyük çətinliklərə tab gətirərək böyüdü, 2011-ci ildəki inqilabın ardından bu sektor çox problem yaşayıb. 2015-ci ildə yaşanan olar, rus təyyarəsinin Sina dağına çırpılaraq qəzaya uğramasından sonra da 2016-cı ildə turizm qan ağlayıb. Lakin bütün bunlara baxmayaraq, hökumət marketinq kampaniyaları başladaraq, hər il gələn turist sayını artırmağa qərar verib. Bu məqsədlə hökumət həm də hava limanlarında və hotellərdə təhlükəsizlik tədbirlərini artırıb.

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2019

# Ukraynanın yeni prezidentindən inqilabi çağırışlar

## Vladimir Zelenskinin andiçmə mərasimi keçirildi; parlament buraxılır, nazirlər istefa verir...

**Dünən Ukraynanın yeni prezidenti Vladimir Zelenskinin andiçmə mərasimi keçirilib. O, Ali Radada and içib və ardınca Konstitusiya Məhkəməsinin rəhbəri onun dövlət başçısı kimi vəzifəsinin icrasına başladığını elan edib.**

V. Zelenski rəsmən səlahiyyətlərinin icrasına başlayıb. O, Ukrayna Konstitusiyasına və "İncil"ə and içib.... "Mən Ukrayna Konstitusiyası və qanunları əsasında səlahiyyətlərimin icrası zamanı Ukrayna vətəndaşlarının mənafeyindən çıxış edəcəyimə and içirəm"- deyən Zelenskinin nitqində xeyli ilginc məqamlar yer alıb.

**"Yeni Müsavat" Rusiya mediasına istinadən xəbər verir ki, Zelenski çıxışında Avropa yolunu seçdiklərini, amma Avropanın uzaqda yox, beyinlərdə olduğunu deyib:** "Avropa bizim beynimizdə olanda Ukraynada da olacaq. Biz futbolda İslandiya, texnologiyada yapon, doğma vətəni qorumaqda israillilər, xoşbəxt yaşamaq məsələsində isveçrəlilər kimi olmalıyıq. Bizim birinci tapşırığımız Donbasda ocağın söndürülməsidir. Krım və Donbas Ukrayna torpaqlarıdır. Biz orda təkcə torpaqları yox, insanları da itirmişik. Bu illər ərzində hakimiyyət heç nə etməyib ki, onlar özlərini ukraynalı kimi hiss etsinlər. Onlar yad deyillər, onlar ukraynalılardır".

42 yaşlı prezident eyni zamanda bütün yüksək vəzifəli şəxslərdən onun portretini kabinetlərinə asmamağı tələb edib. Zelenski and içərək xalqa bütün məsuliyyəti ilə, vicdanla xidmət edəcəyini bildirib. Yeni prezidentin çıxışındakı diqqət çəkən məqamlardan biri də onun Ali Radanı buraxması və ölkədə növbədənkənar parlament seçkilərinin keçiriləcəyini açıqlaması olub.

BBC rusca V.Zelenskinin çıxışındakı diqqətçəkən məqamları təhlil edib. "Yeni Müsavat" yazır ki, yeni prezidentin çıxışı 20 dəqiqədən artıq davam edib.

Parlamentin buraxılması ilə bağlı dedikləri isə Zelenskinin inauqurasiya çıxışının ən gözlənilən məqamı idi. Hazırda fəaliyyət göstərən Rada beş il bundan öncə seçilib. Həmin vaxt Zelenski ümumiyyətlə, siyasət barədə düşünmürdü.

BBC-nin Ukrayna bürosunun əldə etdiyi məlumata görə, parlamentin buraxılması barədə qərar 21 mayda dərc ediləcək.

Bu halda növbədənkənar seçkilər 14 iyulda baş tutacaq. Seçkilər hazırkı qaydalar əsasında keçiriləcək. Parlamentin yarısı mojaritar üsulla, digər yarısı isə partiyaların siyahısı əsasında seçiləcək. Sonuncu kateqoriyada 5 faizlik seçici baryeri əsas götürüləcək.

Bundan başqa, Zelenski Ali Radanı milli təhlükəsizlik naziri, müdafiə naziri və baş prokuroru istefaya göndərməyə çağırıb. Ukrayna qanunvericiliyinə görə, məhz prezident bu vəzifələrə namizədlərini parlamentə təqdim edir.

İlk iki nazir yeni prezidentin raportundan dərhal sonra istefaya gedəcəklərini açıqlayıb. Amma baş prokuror Yuriy Lusenko bildirib ki, könüllü şəkildə istefa verməyə hazırlaşmır.

İnauqurasiya zamanı Vladimir Zelenskiy bir neçə dəfə rus dilində danışığa keçid edib. Xüsusən də Donbasda və Krımda yaşayan insanların milli şüurunun qaytarılması üçün Ukraynanın hərəkətə keçməli olduğunu deyəndə rus dilinin imkanlarından istifadə edib.

"Onlar Ukrayna dilində başa düşürlər" - yeni prezidentin rusca danışmasına yerindən deputat Oleq Lyaşko etiraz edib.

"Çox sağ olun ki, siz insanları bölməyə davam edirsiz, cənab Lyaşko" - ona tribunadan yeni prezident belə cavab verib.

**Zelenski inauqurasiya nitqinə başlayanda ilk olaraq deyib ki, o, 6 yaşlı oğlu da daxil olmaqla, hər bir Ukrayna vətəndaşının prezidenti olacaq:** "Hazırda andiçmə mərasimində mən deyilən. Bizim hər birimiz əlimizi Ukrayna Konstitusiyasının üzərinə qoyduq və Ukraynaya sadiqlik üçün and içdik".



**Bu məqama yeni seçilən prezident bir də nitqinin sonunda qayıdıb:** "Mən çox istəyirəm ki, sizin kabinetlərinizdə mənim şəklim olmasın. Çünki mən prezidentəm - bu, ikona və idol deyil. Prezident portret deyil. Ora öz uşaqlarınızın şəkillərini asın və hər bir qərardan öncə onların gözlərinə baxın".

**Zelenski bildirib ki, onun ilk vəzifələrindən biri Donbasda atəşkəsə nail olmaq olacaq:** "Bu həqiqətdir ki, tarix ədalətli deyil. Bu müharibəni biz başlamadıq, lakin biz bu müharibəni bitirəcəyik. Biz dialoqa hazırıq. Lakin mən əminəm ki, dialoqa başlamaq üçün ilk addım atılmalı və bütün ukraynalı əsirlər geri qaytarılmalıdır".

**Yeni prezident Donbasda sülhə nail olmaq üçün öz postundan gedə biləcəyini qeyd edib:** "Artıq bizim qəhrəmanlarımız ölməyəcək, mən hər şeyə hazıram. Mən zəif qərarlar verməyəcəyəm və əgər lazım olarsa, öz populyarlığımı itirməyə hazıram. Əgər sülh bərpa olunarsa, mən öz postumdan getmək üçün tərəddüd etməyəcəyəm. Biz hamımız ukraynalıyıq. Böyük və ya kiçik, həqiqi və ya yanlış ukraynalı yoxdur. Biz birləşməliyik, çünki bundan sonra biz güclü ola bilərik".

Xatırladaq ki, inauqurasiya mərasimində Latviya, Litva, Estoniya, Gürcüstan və Macarıstan prezidentləri, Türkiyənin vitse-prezidenti, Belarus, Rumıniya, Slovakiya və Bolqarıstanın baş nazirləri, ümumilikdə 40 ölkədən dövlət və hökumət nümayəndələri iştirak edib. Mərasimdə Azərbaycanı Milli Məclisin sədri Oqtay Əsədov təmsil edib.

**❑ Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

# Türkiyədə yeni "kürd açılımı" iddiası

## Həsən Oktay: "Dünyanın İran-ABŞ qarşıdurmasına diqqət kəsildiyi bir vaxtda Türkiyənin "açılım" kimi ciddi bir mövzunu seçkilərdə istifadə cəhdi risklidir"

**Türkiyə hökuməti PKK lideri Abdulla Öcalanın vəkilləri ilə görüşünə qoyulan yasağı ləğv edib. Bu barədə açıqlamanı ədliyyə naziri Əbdülhəmid Gül verib. Nazir deyib ki, Öcalanın vəkilləri ilə görüşməsi onun qanuni haqqıdır.**

Gül bildirib ki, məhkumun vəkili ilə görüşməsi Cəzaların İcrası Qanunu ilə tənzimlənir. Onun sözlərinə görə, təhlükəsizlik riski yaranacağı təqdirdə görüşlər məhdudlaşdırıla bilər.

Xatırladaq ki, Abdulla Öcalan 8 illik fasilədən sonra bu il mayın 2-də saxlanıldığı İmralı adasında vəkili ilə görüşüb. PKK lideri sonuncu dəfə 2011-ci il iyulun 27-də vəkili ilə görüşüb. Ötən müddətdə Öcalanın vəkilləri görüş üçün 810 müraciət göndərib.

Abdulla Öcalan ötən həftə Türkiyədə səfərdə olan Avropa İşgəncələr Əleyhinə Komitənin təmsilçiləri ilə də görüşüb. Öcalanın vəkili Novruz Uysal isə bildirib ki, Öcalanın vəkilləri ilə görüşünə icazə verilməsi qərarı aprelin 22-də verilib. Vəkil deyib ki, Öcalan üzərində görüş qadağasının götürülməsi xəbərini televiziyadan öyrəniblər, amma hələlik görüş üçün onlara icazə verilməyib.

Qeyd edək ki, bu il fevralın 15-də PKK lideri Abdulla Öcalanın həbs olunmasının 20 ili tamam olub. Xaricdə saxlanılaraq Türkiyəyə gətirilən Öcalan ömürlük azadlıqdan məhrum edilib.

Öcalanın vəkilləri ilə görüşünə qoyulan yasağın qaldırılmasına prezident Ərdoğan da münasibət bildirib. AKP-nin qrup toplantısından sonra çıxış edən Ərdoğan jurnalistlərin suallarını cavablandırıb. Jurnalistlərin "8 ildən sonra vəkillərinin Öcalanla görüşü müxalifət tərəfindən yeni bir "həll prosesinin" başlaması kimi qiymətləndirildi" sualına cavab olaraq Ərdoğan deyib ki, "yeni "çözüm süreci" deyilən bir şey yoxdur". Eyni zamanda Ərdoğan xatırladıb ki, vəkilləri ilə görüş yasaqlansa da, ailəsi Öcalanla görüşə bilib. Ən son olaraq isə yanvarda qardaşı Mehmet Öcalan PKK lideri ilə görüşüb.

Qeyd edək ki, Öcalanın 8 illik fasilədən sonra vəkilləri ilə görüşünə icazə verilməsi və ardınca ümumiyyətlə bu yasağın ləğv olunması media və siyasi dairələrdə fərqli şərhlərə yol açıb. Bir sıra analitiklərə görə, hökumət 2015-ci ildən sonra başladılan antiterror əməliyyatlarını böyük ölçüdə başa çatdırıb və bu səbəbdən indi PKK təhlükəsi ciddi şəkildə azaldığı üçün yenidən siyasi həll məsələsini gündəmə gətirib. Bunun üçün ilk addım isə təbii ki, PKK-nın lideri Öcalana qarşı müəyyən yumşaldıcı addımların atılması ola bilərdi.

Digər bir versiyaya görə isə AKP hökuməti 23 iyun İstanbul bələdiyyə seçkiləri öncəsi kürd səslərini bölmək üçün bu cür addımlara gedir. Çünki hazırda həbsdə olan HDP həmsədri və kürdlər arasında ciddi nüfuza sahib olan Səlahəddin Dəmirtaşla PKK-dakı Öcalan tərəfdarları arasında fikir ayrılığı var. Eyni zamanda Demirtaş AKP ilə barışmaz münasibətə malikdir. Yəni Öcalana edilən jest istər-istəməz kürd səslərini böləcək.



**Bəs əslində nə baş verir? Türkiyə hakimiyyətinin Öcalan qərarının arxasında hansı səbəblər dayanmış ola bilər? Politoloq, "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin sədri Həsən Oktay "Yeni Müsavat"a açıqlamasında həqiqətən də son zamanlar "kürd açılımı" mövzusunun gündəmə gəldiyini bildirdi. Onun fikrincə, "açılım olacaq" mesajının verilməsi özü də bir mənada seçkilərin nəticələrinə təsir etmək üçün həyata keçirilən bir addımdır:** "İstanbul seçkilərinin nəticələri ləğv olunduqdan sonra sistemin dalana dirənməsi iddiaları ortaya çıxdı. Bir çox müşahidəçilərə görə, AKP seçkiləri qazanmaq üçün üstü örtülü şəkildə "açılım" həyata keçirir. Hazırda yerli mətbuatda bu mövzuda ciddi müzakirələr davam edir. Öcalanla vəkillərinin görüşməsi də bu plan çərçivəsində həyata keçirilir. Doğrudur, istənilən halda həbsdə olan məhkumun öz vəkilləri ilə görüşməsi onun haqqıdır, amma bu qərarın indiki dövrdə qəbul olunması "açılım" müzakirələrini yenidən qızışdırdı. Düşünürəm ki, İstanbulda təkrar seçkilər elan olunduqdan sonra "açılım ola bilər" mesajının cəmiyyətə ötürülməsi seçkilərin nəticələrinə təsir etmək üçün atılmış addımdır".

**Ancaq H.Oktay Öcalan və "açılım" məsələsinin indiki dövrdə gündəmə daşınmasından narahatdır. Ekspertin fikrincə, Türkiyənin maraqları baxımından riskli addımdır:** "Dünyanın İran-ABŞ qarşıdurmasına diqqət kəsildiyi bir vaxtda Türkiyənin "açılım" kimi ciddi bir mövzunu seçkilər üçün istifadə etməyə cəhd etməsi risklidir. Nəzərə almaq lazımdır ki, seçkilərin nəticələri bəlli olmadığı üçün bu addımlar sonradan riskli nəticələr doğura bilər".

Həsən Oktay deyir ki, Türkiyə dövləti "kürd açılımı" layihəsini yenidən başladacaqsa, bu bir dövlət siyasəti olmalıdır, dərindən hesablanmalıdır, qısa məsafəli hesablamalar üzərindən cari maraqlar üçün edilməməlidir. Şimali İraq Kürd Administrasiyasında Nəçrivan Bərzani muxtariyyətin sədri olmağa hazırlaşır. Bu prosesi, eləcə də İran əməliyyatının forması və doğuracağı nəticələri hesablamadan sırf İstanbul seçkiləri üçün "açılım" layihəsi irəli sürmək böyük sıxıntılar yarada bilər".

Maraqlıdır ki, ötən gün kürdlərin partiyası olan HDP İstanbul seçkilərinə münasibət bildirib. HDP parlament qrupunun sədri Fatma Kurtulan deyib ki, indi hər kəs kürdlərin İstanbul bələdiyyə seçkilərində nə edəcəyini müzakirə edir. "Kürdlər demokratiya, ədalət, sülh mübarizəsinin qərarlı müdafiəçiləridir. Kürdlərin bu vəziyyəti iqtidara, vəziyyətə görə dəyişməz".

**❑ Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 109 (7279) 21 may 2018

# Məktəblilərin ağır çanta problemi həll olunur



**Cəmiyyəti narahat edən dərsliklərin çəkisinin çox olması, şagirdlərin çanta yükünün ağırlığı ilə bağlı məsələ, deyəsən, həllini tapacaq. Belə ki, Milli Məclisin Elm və təhsil komitəsi Təhsil Nazirliyi ilə birlikdə dərsliklərin yüngülləşdirilməsi ilə bağlı iş aparır.**

Bu barədə Lent.az-a açıqlamasında Milli Məclisin Elm və təhsil komitəsinin sədri **İsa Həbibbəyli** məlumat verib. Onun sözlərinə görə, gələn ildən etibarən problem həllini tapacaq: "Əldə olunmuş razılığa görə, gələn ildən ibtidai siniflərin hər sinfə aid olan dərslikləri mərhələli şəkildə iki ayrı-ayrı dərslik kimi çap olunacaq. Şagird dərs ilinin birinci yarısında dərsliyin bir hissəsini öz çantasında məktəbə aparacaq. İkinci yarısında isə dərsliyin ikinci hissəsi məktəbdə istifadə olunacaq. Beləkilə, aşağı sinif şagirdlərinin dərsliklərinin ağır olması ilə bağlı problem aradan qalxacaq".

**İ.Həbibbəyli dərsliklərin keyfiyyət probleminə də toxunub:** "Təhsil Nazirliyi ilə birlikdə imkan daxilində dərsliklərin cildinin yumşaq olması, kağızının keyfiyyət məsələsinə də diqqət yetiriləməsi barədə razılığa gəlinib. Cəmiyyət nəzərə almalıdır ki, bədii əsərlərin çap olunduğu bəzi yüngül çəkiyə malik kağızlar dərslik üçün yaramır. Çünki dərslik bir neçə illiyə çap olunur. Buna görə dərslik üçün daha davamlı kağız lazımdır. Buna baxmayaraq, imkan daxilndə yenə də dərsliklərdə davamlı kağızların yerinə daha yüngül çəkiyə malik kağızlardan istifadə olunacaq".



## "Bakcell"dən eşitmə məhdudiyyətli gənclər arasında ənənəvi futzal turnirinə dəstək

**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti eşitmə məhdudiyyətli gənclər arasında keçirilən futzal üzrə ənənəvi "Yaz turniri"nə növbəti dəfə dəstək göstərib.**

AFFA-nın, Sahə Futbol Federasiyaları İctimai Birliyinin və "Bakcell" şirkətinin dəstəyi, Əlillər Futbolu Federasiyasının təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetinin idman sarayında keçirilmiş futzal turnirində "Bakı", "Azəri", "Zirvə", "Şimşək" və "Ümid" komandaları mübarizə aparıb.

Turnirin nəticəsi olaraq, "Azəri" komandası birinci, "Şimşək" komandası ikinci, "Zirvə" komandası isə üçüncü yeri tutub. "Azəri" komandasının üzvü Rabil Şabanov ən yaxşı qapıçı, "Şimşək"dən Ümid İbrahimov isə ən yaxşı oyunçu adına layiq görülüb. Turnirin ən məhsuldar futbolçusu "Azəri" komandasının üzvü Rəvan Muxtarlı olub.

Özünün genişmiqyaslı Korporativ Sosial Məsuliyyət proqramı vasitəsilə "Bakcell" şirkəti Azərbaycanda gənclər və idmanın inkişafına dəstək göstərməyə və xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərə yönəlmiş mühüm layihələri həyata keçirməyə davam edəcək.

**"Bakcell" haqqında**

Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi "Bakcell" şirkəti müasir mobil kommunikasiya xidmətləri istifadəçilərinə geniş çeşiddə məhsullar təklif edir. Şirkət öz abunəçilərinə ən mükəmməl 4G/LTE mobil internet xidməti göstərir.

"Bakcell" şirkətinin 4G şəbəkəsi artıq bütün Bakı və Abşeron ərazisi daxil olmaqla ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsi təmin edir.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən "Bakcell" şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test"). 2018-ci ildə şirkət "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu mükafat bütün dünyada tanınmış "Ookla" şirkəti tərəfindən "Bakcell"ə Azərbaycan Respublikası ərazisində ən sürətli mobil internet xidmətlərinin göstərilməsinə görə təqdim edilib

"Bakcell" və onun məhsul və xidmətləri haqqında ətraflı məlumat əldə etmək üçün, xahiş edirik, www.bakcell.com internet səhifəsinə daxil olun və ya 555-ə zəng edin. Press-relizlərlə tanış olmaq üçün www.bakcell.com/az/news (və ya İngilis dili üçün www.bakcell.com/en/news) səhifəsinə daxil olun.

Qeyri-"Bakcell" abunəçiləri isə 012 498 89 89 nömrəsinə zəng etməklə "Bakcell"in məhsul və xidmətləri haqqında məlumat əldə edə bilərlər.

## "Diqlas"ı sökməyə başlayırlar - ərazi hasara alınıb

### Ticarət mərkəzinin qarşısında piyadaların hərəkəti məhdudlaşdırılıb

**Martın 26-da yanğın baş verən "Diqlas" Ticarət Mərkəzinin söküntüsünə başlanılıb. "Yeni Müsavat"ın əməkdaşı olaraq ərazidə olduğumuz zaman müşahidə etdik ki, ticarət mərkəzinin qarşısında olan piyada keçidinin girişləri bağlanılıb. "Diqlas"ın qarşısında avtomobillərin hərəkəti məhdudlaşdırılmasa da, piyadaların əraziyə buraxılması yasaqlanıb. Yanğından sonra ticarət mərkəzi polis tərəfindən qoruyucu sədlərlə əhatələnmişdi. Hazırda isə həmin sədlər ticarət mərkəzinin yalnız önündədir. Digər ətraflara isə dəmirdən qoruyucu hasar çəkilib. Yanan ticarət mərkəzinin arxa hissəsinə tikinti texnikaları gətirilib. Orada hələ ki xırda söküntü işləri aparılır. Eyni zamanda ərazidən yanan konstruksiyanın qalıqları da çıxarılır. Binanın əsas hissəsinin söküntüsünə isə bu həftə ərzində başlanılacağını öyrəndik.**









Ticarət mərkəzinin qarşısında olan zaman müşahidə etdik ki, ərazidə Fövqəladə Hallar Nazirliyinin 1 ədəd yanğınsöndürən maşını var. Nazirliyin əməkdaşları da ərazidə müvafiq xidmətlərini aparırdılar. Eyni zamanda ticarət mərkəzinin qarşısında polislər də xidmət aparıb, ətrafa nəzarət edirlər.

Ticarət mərkəzinin ətrafında fəaliyyət göstərən tikililərin hamısı sökülüb. Onlara hər hansı bir maddi yardımın edilməsi nəzərdə tutulmayıb. Eyni zamanda "Diqlas"ın arxasında böyük bir sahədə piştaxta qurub, müxtəlif ucuz geyimlər satanlara da dövlət tərəfindən maddi yardımın edilməsi nəzərdə tutulmayıb. Demək olar ki, bu piştaxtalardan heç biri sağ qalmayıb. Yanğından sonra isə onların sahiblərinin bir qismi yenidən piştaxta quraraq, hasarlanmış hissədən kənarda fəaliyyətlərini davam etdirirlər. Ərazidə olduğumuz zaman yanğından zərər çəkən sahibkarlara rast gəlmədik. Xidmət aparan polislər də bildirdilər ki, sahibkarlar qalan mallarını ticarət mərkəzinin anbarından çıxardıqdan sonra bura gəlmirlər. Polisin sözlərinə görə sahibkarlara müvafiq qaydalara uyğun olaraq kompensasiya ödənilib. Hüquqi Aktların Dövlət Reyestr Xidmətinin yaydığı məlumatda qeyd edilib ki, maddi yardımın məbləği mağaza, anbar icarəyə götürmüş zərərçəkmiş sahibkara - 10000 manat; piştaxta və digər sahə icarəyə götürmüş zərər çəkmiş sahibkara - 2000 manat müəyyən edilib.

Məlumat üçün qeyd edək ki, rəsmi açıqlamalara görə, binanın yanğından tam şəkildə mühafizə olunan sahəsi isə 275 kvadratmetr təşkil edib. Belə ki, yanğından tam qorunan 175 kvadratmetrlik sahə binanın sağ yan hissəsinə, 100 kvadrat metrlik sahə isə binanın ön hissəsində yerləşən mağazalara aiddir. Binanın ümumi sahəsi 17 559 kvadratmetrdir.

Yanğın nəticəsində zərər görən sahibkarlara İqtisadiyyat Nazirliyi tərəfindən müxtəlif yerlərdə, aylıq icarə haqqı ödəmədən obyektlərdə ticarətlə məşğul olma imkanı yaradılıb. İstəyən sahibkar bu imkandan yararlana bilir. Lakin sahibkarların əksəriyyəti ilə söhbətimiz zamanı onlar bildirdilər ki, ələvə iş qurmaq üçün əllərində heç bir vəsait yoxdur. Ona görə də yaradılan imkandan yararlana bilmirlər...

Onu da qeyd edək ki, "Diqlas"ın binası söküldükdən sonra yerində hansı məqsədlə nə üçün tikilinin ucaldılacağı barədə rəsmi açıqlama verilməyib. Sadəcə olaraq, ticarət mərkəzinin rəhbərləri zərərçəkən sahibkarlarla söhbətləri zamanı bildiriblər ki, bina bərpa ediləcək və yenidən ticarət mərkəzi kimi fəaliyyət göstərəcək.

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**
**Fotolar müəllifindir.**

Yeni Müsavat
N 109 (7279) 21 may 2019

# Amerikalılar Trampa niyə məğlub oldular....

## Elşən Mustafayev: "Son 1 il onun üçün asan keçməyəcək"

**Amerika prezidenti Donald Tramp üçün impiçment təhlükəsi olsa da, amerikalılar onu bir çox addımlarına görə qınasalar da, artıq 3 ildir o, ABŞ-a prezidentlik edə bilir. Faktiki olaraq Tramp sadə amerikalılara, impiçment təhlükəsinə qalib gəlir...**

Hazırda Trampa yeni impiçment təhlükəsi yaranıb.

Axar.az xəbər verir ki, bu barədə ABŞ Nümayəndələr Palatasının demokratlardan olan üzvü Castin Amaş bildirib.

Amaşın sözlərinə görə, Tramp xüsusi fəaliyyətlərə cəlb olunub və buna uyğun davranış nümayiş etdirib. Xüsusi prokuror Robert Müllerin hazırladığı hesabatda məhkəməyə verilməsini tələb edən onlarla sübutlar var.

"Bu cür hesabat əsasında ABŞ-dakı istənilən vəzifəli şəxsə qarşı ittiham irəli sürülərdi", - Amaş bildirib.

ABŞ prezidenti buna cavabında Amaşın onun impiçment edilməsi çağırışını tənqid edib. Prezident Nümayəndələr Palatasında 5-ci dönəmdir çalışan konqresmenin "heç vaxt fanatı" olmadığını deyib.

"O, mənim və respublikaçılarımızın bir neçə ideya və siyasətinin əleyhinə çıxmaqla adının mübahisəli məsələlərdə hallanmasını istəyir", prezident bildirib.

Tramp öz twitter səhifəsində qeyd edib ki, Castin opponentlərimizin xeyrinə oynayan uğursuz bir şəxsdir.

Bəzi müxalif demokratlar prezident Donald Trampın impiçmentinə dair çağırışlarını artırıb.

Onlar arasında prezidentliyə namizədlər də var.

Ümumilikdə isə demokratlar uzun və siyasi baxımdan ziddiyyətli prezidenti impiç edib, vəzifədən uzaqlaşdırmaq prosesini izləyib-izləməməklə bağlı fərqli



mövqelərə sahibdirlər.

Nümayəndələr Palatasının spikeri Nensi Pelosi hələ ki impiçmentin əleyhinədir.

Bütün bunlardan sonra Tramp ətrafında bir sıra müzakirələr açılıb. Onun prezidentliyinin ilk dönəm üçün qalan 2 il yarıma yaxın müddətini başa çatdırıb-çatdırmayacağı, özündən əvvəlki üç dövlət başçısı-Bill Klinton, Corc Buş və Barak Obama kimi ikinci dəfə Ağ Evin sahibi olub-olmayacağı indidən suallar doğurur. Müzakirələr sırasında ən çox dünyanın demokratik cəmiyyəti sayılan amerikan cəmiyyətinin hələ də bu şəxs qarşısında təslimçi vəziyyətdə qalması yer alır.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev Trampın impiçment məsələsinin elə də asan olmadığını düşünür:** "Donald Tramp prezident seçiləndən qısa müddət sonra ona impiçment tətbiq olunacağı haqda fikirlər çox səslənib. Amma göründüyü kimi, 3 ilə yaxın müddət keçib və söylənilənlər, bəzilərinin proqnozları özünü doğrultmur. Hazırda yayılan məlumatların taleyi öncəkilərdən fərqlənməyəcək. Bir məsələyə xüsusi diqqət çəkmək lazımdır ki, Trampın prezident olduğu ilk 6 ay ərzində ona qarşı olan ittihamların sayı və çəkisi bu gün olduğundan qat-qat artıq idi. Amma ona qarşı olan güclər həmin ittihamları hüquqi çərçivəyə sala bilmədilər. Bundan sonra istədiklərini həyata keçirmək çox çətin məsələdir. Bütün bunlara baxmayaraq Trampa qarşı tənqidlərini, ittihamlarını, müxalifətçiliklərini davam etdirəcəklər. Tramp isə çox ciddi səhvlər buraxmayacağı halda prezidentlik dönəmini tam başa vuracaq. Başqa tərəfdən Amerika tarixində çox az sayda, prezidentlər impiçmentlə vaxtından öncə prezidentliklərini başa vurublar. Onların bu halla qarşılaşması əsasən ABŞ-ın milli təhlükəsizliyi ilə bağlı buraxdığı, yumşaq desək, səhvlərə görə olub. Dünyaya demokratik dəyərlər vəd edən bir ölkə üçün impiçmentlə prezidenti azad etmə ölkənin imicinə böyük zərbə vurduğundan adətən belə addıma böyük səbəblər olduğunda və başqa yol qalmayanda gedilir. Trampın indiyədək verdiyi qərarların demokratiya və insan haqlarının əleyhinə olduğunu söyləyənlər az deyil. Amma son illər Avropada olduğu kimi ABŞ-da belə qərarlar əhalinin əksəriyyəti tərəfindən yaxşı qarşılanır. Xatırlayırsınızsa, Tramp seçkiqabağı ABŞ-a miqrant axınının qarşısını almaq, Meksika ilə sərhəddə səddi tikmək, dövlətlərə olunan maliyyə yardımlarını kəsmək və daxildə o maliyyəni xəcləmək və s. kimi vədlərlə gəlmişdi. Onların əksəriyyətini həyata keçirməklə məşğuldur və bu da əhalinin böyük kəsimi tərəfindən yaxşı qarşılanır. Eyni zamanda seçkiöncəsi Qüdsü İsrailin paytaxtı kimi tanıyacağı vədini çoxlarının gözləmədiyi halda həyata keçirib. Bu isə ABŞ-da siyasi proseslərə təsiri olan yəhudi lobbisinin dəstəyi deməkdir. Ümumiyyətlə, Trampın son 1 ili onun üçün asan keçməyəcək. Yaxın Şərq probleminin çözülməməsi, Rusiya ilə qarşıdurmanın yerində qalması, son vaxtlar İranla müharibə təhlükəsinin yaranması prezident üçün əlavə çətinliklər yaradır. Amma bilmək olmaz ki, sonda bu problemlərin nəticələrinə görə onun nüfuzunda yüksəliş olacaq, ya eniş. Hələlik görünən odur ki, Trampı ona qarşı irəli sürülən ittihamlar, impiçment hədələri çox narahat etmir. Hazırda onu ikinci dəfə prezident seçilməsi maraqlandırır və bunun baş verməsi üçün bütün vasitələrlə əlindən gələni edəcək".

**Ekspert Trampın ikinci dəfə qalib gələ bilib-bilməyəcəyinə də toxundu:** "Kimlərsə onun ikinci müddətə prezident seçilməsi şansının olmamasını bildirirsə, əslində bu belə deyil. Hesab edirəm ki, hazırda onun şansı yarı-yarıyadır. Təxminən 1 il vaxt qalıb ki, vəziyyət Trampın xeyrinə və ya əleyhinə dəyişsin. Bu müddət ərzində Respublikaçılar onu ya növbəti dəfə prezidentliyə namizəd edəcəklər, yaxud başqa namizədlər verəcəklər . Hazırda öz partiyasının əksəriyyəti tərəfindən müdafiə olunur. Amma dünyada baş verən hadisələri çox vaxt proqnozlaşdırmaq mümkün olmadığı üçün baş verəcəklərdən dolayı hər şey ola bilər".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Körfəzdə müharibəni kim istəyir - Tehran ittihamları rədd edir

## Oman körfəzi, Səudiyyə Ərəbistanı və İraqdakı hücumlar Trampı İrana qarşı müharibəyə sövq edə bilər

**Səudiyyə Ərəbistanı hökuməti ötən həftə krallığın neft kəmərlərinə hücuma görə İranı ittiham edib. Keçmiş xarici işlər naziri və hazırda xarici siyasət üzrə dövlət naziri postunu tutan Adil Cubeyr bildirib ki, ötən həftənin ikinci günü Ərəbistanın Davademi və Afif məntəqələrində ARAMCO neft şirkətinə məxsus neft kəməri və nasos stansiyalarını dronlarla bombalayan Yəmən husiləri təlimatı İrandan alıb.**

Xatırladaq ki, ötən həftənin ikinci günü qeyd olunan neft kəməri və nasos stansiyalarına 7 bomba yüklü dronla hücum olmuşdu. Daha sonra bu hücuma görə məsuliyyəti Yəmən husiləri öz üzərlərinə alıb və bu hücumun Yəmənin bombalanmasına cavab olaraq təşkil edildiyini bəyan ediblər.

Adil Cubeyr qeyd edib ki, husilər indi İrandan gələn təlimatla hərəkət edir və İranın maraqları üçün Yəmən xalqının potensialını satıb. Cubeyr deyib ki, husilər Sepahın bir parçasıdır. Səudiyyə neft kəmərinə hücum da bunun sübutu idi.

Səudiyyə Ərəbistanının ABŞ-dakı sabiq səfiri və hazırda müdafiə nazirinin müavini postunu tutan şahzadə Xalid bin Salman da bənzər açıqlama verib.




Neft kəmərinə hücumu terror adlandıran şahzadə husilərin bu hücumu İranın sifarişi ilə törətdiyini iddia edib.

Yəmən Ali İnqilab Şurasının sədri Məhəmməd Əli əl-Husi isə BBC-yə bildirib ki, dron hücumları husilərin öz qərarıdır və məqsəd Səudiyyə Ərəbistanının Yəməndə törətdiyi bombardmanlara cavab verməkdir. Əl-Husi deyib ki, hücumda istifadə olunan dronlar yerli, yəni Yəmən istehsalıdır, bunların detallarını isə Amerika, Çin və daha bir neçə ölkədən alırlar. O, İranla ABŞ arasında gərginliyin artdığı bir vaxtda belə bir hücumun öz təşəbbüsləri olduğunu, bu addımın Səudiyyə hakimiyyətinə cavab olduğunu qeyd edib. O əlavə edib ki, bu hücumların məqsədi Səudiyyə Ərəbistanının Yəmənə hava zərbələrinin dayandırılmasıdır.

Krallıq isə İranı ittiham edir. Adil Cubeyr deyib ki, Səudiyyə Ərəbistanı regionda müharibəyə yol verilməsi tərəfdarı deyil, ancaq Krallıq ötən həftə neft obyektlərinə qarşı hücumlara cavab verməyə hazır olduğunu bildirib. Riyad İrana indi topun onun sahəsində olduğunu bildirib.

Qeyd edək ki, ötən həftənin bazar günü Oman körfəzində BƏƏ-yə məxsus bir, Norveçə məxsus bir və Səudiyyə Ərəbistanına məxsus iki neft tankeri hücuma məruz qalıb. Bu hücumlara görə körfəz ölkələri İranı ittiham edir. Rəsmi Tehran isə ittihamları rədd edir. Baxmayaraq ki, hələlik ərəb ölkələrinin əlində İranı ittiham etmək üçün sübut yoxdur. Ancaq ittiham tərəfi hesab edir ki, ABŞ-ın İranın neft satışına embarqo qoymasından sonra Tehran Qərbi hədələyərək Fars körfəzindən neft ixracına mane olacağını bildirmişdi. Bu hücumlar da birbaşa məhz neft satışına mane olmağa xidmət edir.

Ancaq məsələ ondadır ki, hər iki hadisə, yəni Oman körfəzində tankerlərin vurulması və husilərin Səudiyyə kəmərlərinə hücumu ABŞ-ın Fars körfəzinə gəmi, təyyarə və raketlər göndərdiyi bir vaxtda baş verib. Bu isə başqa sözlə müharibə üçün səbəb verməkdir, hansı ki, İran rəhbərliyi ən yüksək səviyyədə müharibə istəmədiyini bəyan edib.

Lakin eyni zaman son hücumlar Yaxın Şərqin əsas enerji mənbələrinin təhlükədə olduğundan xəbər verir. Baxmayaraq ki, ABŞ prezidenti Donald Tramp özü də ötən həftə bəyan edib ki, körfəzə 120 minlik ordu göndərilməsi "saxta xəbərdir", İranla müharibə olmasını istəmir. Lakin bütün bunların fonunda ABŞ əlavə qüvvələri körfəzə daxil olmaqdadır.

Aydın məsələdir ki, Səudiyyə Ərəbistanı İranla müharibə etmək istəmir. Lakin krallıq İranın cəzalandırılmasında maraqlıdır və bunu gizlətmir. Ərəbistan hakimiyyəti İranı regionda qeyri-sabitliyin əsas səbəbkarı hesab edir. Ancaq hər kəsə məlumdur ki, İrana qarşı çıxa biləcək əsas güc ABŞ-dır. Bu mənada nəzərlər ABŞ-a dikilib. Lakin eyni zamanda sanki regionda hansısa güclü əllər müharibə üçün uyğun şərtlər formalaşdırmağa çalışır. Ötən həftə baş verən iki hücumu qeyd etdik. Bazar günü isə gözlənilmədən ABŞ-ın Bağdaddakı səfirliyi raket atəşinə tutulub. Naməlum silahlılar Bağdadın xüsusi qorunan "yaşıl zona" adlı ərazisindəki səfirlik binasını raket atəşinə tutub. Təbii ki, hücumun məsuliyyətini üzərinə alan olmayıb.

Məsələ ondadır ki, daha əvvəlki terror aktlarında olduğu kimi, Bağdad hücumu ilə bağlı da "zəmin" əvvəldən hazırlanmışdı. Belə ki, həftənin əvvəlində məlumat yayıldı ki, ABŞ Dövlət Departamentinin əməkdaşlarına hücum hazırlanması ilə bağlı kəşfiyyat məlumatı əldə olunub. Bundan sonra ABŞ hökuməti fövqəladə hallar vəziyyətində çalışan bir neçə əməkdaş istisna olmaqla, Bağdaddakı səfirlik və Ərbildəki konsulluq da daxil olmaqla, İraqdakı diplomatik xidmət əməkdaşlarının bu ölkədən çıxarıb. Hətta Pompeonun keçən bazar Bağdada səfər edərək iraqlı rəsmiləri silahlı hücumlarla bağlı xəbərdar etməsi ilə bağlı yazılar da yazıldı. Təbii ki, hücum edəcək silahlıların şiə qrupları olacağı bildirilirdi. Bazar günü isə bu hücum baş verdi. Hələlik Bağdad hücumunun məsuliyyətini üzərinə götürən olmasa da, bir neçə əsas şiə silahlı qrupları bəyanat yayaraq hücumu pisləyib.

Belə anlaşılır ki, kimlərsə amerikalıları İrana qarşı savaşa sövq etmək üçün dəridən-qabıqdan çıxır. Yeri gəlmişkən, ötən həftə Amerika mətbuatı yazdı ki, Tramp müşaviri Con Bolton və dövlət katibi Pompeoya İranla bağlı vəziyyəti "həddən artıq" gərginləşdirdiyi üçün acıqlanıb. Belə görünür ki, Vaşinqtonun özündə də Amerikanın İranla qarşı-qarşıya gəlməsini istəyən qüvvələr var. Ən azından prezident Trampın bunu istəmədiyi bəllidir. Amma görünür ki, istəyən qüvvələr də elə də zəif deyil.

Hər nə qədər nisbi sakitləşmə görüntüsü yaransa da, İran ətrafında gərginlik davam edir. Özü də təkcə İran deyil, indi regionun bir çox ölkələri həssas, partlayışa hazır vəziyyətə gəlib.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 109 (7279) 21 may 2019



# Sancısı tutana qədər hamilə olduğunu bilmədi

Şotlandiyanın Folkerk şəhər sakini hamiləliyi barədə bilmədən qəfil uşaq dünyaya gətirib. 20 yaşlı Steysi Porter ötən cümə günü qarnında sancılar hiss edib. Həmin vaxt onun sevgilisi Devid Conston divanda yatırdı. Səhərə yaxın kişi oyanıb və telefonun ekranında buraxılmış 60 zəng görüb. Telefonu səssiz rejimdə olduğu üçün kişi bunlardan xəbər tutmayıb. Aradan bir neçə saniyə keçəndən sonra qız yenidən ona zəng edərək "yuxarı qalx, mən uşaq doğdum" deyib.

"Hər şey dumanlı idi və mən qışqırıq, ağlama səslərindən oyandım", - bunu da Devid deyib O, sevgilisinin olduğu vanna otağına qalxıb və daha sonra həkim briqadası çağırıb.

Porterin dediyinə görə, doğuş olduqca tez və ağrısız keçib. Bir neçə dəqiqə keçəndən sonra dünyaya Sofi Qreys gəlib və dərhal Conston ona yardım üçün yaxınlaşıb. Yeni ana qeyd edib ki, uşağın dünyaya gəlməsinə qədər o, hamiləlik əleyhinə həb qəbul edir və uşaq planlaşdırmırdı. Bütün bu müddət ərzində o, spirtli içkidən istifadə edir və məzuniyyət zamanı uzaq yerlərə səfər edirdi. Bütün bunlar isə hamiləliyin əleyhinə idi. Həkimlər isə ilk dəfədir ki, belə situasiya ilə qarşılaşdıqlarını deyiblər. Nəticədə onlar qadını və qızını evə buraxıblar. Çünki onların həkim müayinəsinə və müşahidəsinə ehtiyacları olmayıb.

# Saç boyası xərçəng yaradır?



Araşdırmalar nəticəsində məlum olub ki, müxtəlif ölkələrdə yaşayan qadınların çox hissəsinin istifadə etdiyi saç boyalarının tərkibində onkoloji xəstəliklərin inkişafı üçün provokator rolunu oynayan maddələr var. Bir çox boyaların tərkibində olan ikinci dərəcəli aminlər kimi xüsusi kimyəvi maddələr, o səbəbdən təhlükəli sayılır və onlar havada olan müxtəlif birləşmələrlə ( misal olaraq, tabak tüstüsü) reaksiyaya girdikdə, ən güclü kanserogen birləşmələr ifraz olunur. Ən təhlükəlisi odur ki, ikinci dərəcəli aminlər baş dərisinə uzun müddətli (aylar və hətta illərlə) çökə bilirlər. Bununla məlum olur ki, boyanı nə zaman istifadə etməyinizdən və hansı boya istehsalçısını seçməyinizdən asılı olmayaraq özünüzü böyük təhlükəyə atmış olursunuz. 2009-cu ildə alimlər və həkimlər xəbərdarlıq etmişdilər ki, saçların tez-tez boyanması (ildə 9 dəfədən artıq) leykemiya təhlükəsini 60 % artırır. 2010-cu ildə isə Avropada daimi istifadəsi zamanı sidik kisəsi xərçənginə gətirən bir çox boyaların satışı qadağan edilib.

# 110 min dollarlıq telefonu aeroportda unutdu

Çində polislər bir nəfərin itmiş "Vertu" markalı telefonunu tapıb özünə qaytarıb. Telefonun qiyməti 110 min dollara yaxındır. Telefon Lin soyadlı bir kişi tərəfindən Vençjou şəhərinin aeroportunda unudulub. Aparat qızıldan hazırlanıb və üstündə 800 brilyant olub. Telefon sahibi onun itdiyindən duyuq düşən kimi bu barədə hüquq-mühafizə orqanlarına məlumat verib. Axtarışlara başlamaq üçün polislər öncə aeroportdakı müşahidə kameralarının qeydiyyatına nəzər salıblar. Ilkin baxış zamanı müəyyən olunub ki, Vertunu naməlum bir qadın götürüb. Qısa müddət sonra qadını Vençjou yaxınlığındakı kəndlərdən birində aşkarlamaq və aparatı ondan alıblar. Telefon sahibinin onu tapan üçün nəzərdə tutduğu 1625 dollar məbləğindəki mükafatdan polislər imtina edib. Buna bənzər hadisə Çində daha öncə də baş verib. Belə ki, 2014-cü ilin əvvəlində bir çinli taksi sürücüsü sərnişinlərdən birinin maşında unutduğu 27 min dolları ona qaytarmışdı.




# Uşaqları məzun oldu, valideynlər saçyoldusuna çıxdılar

Amerikanın Tennesi ştatında şagirdlərin valideynləri məzun gecəsində dalaşıblar. Buna səbəb kilsədə kimin harada dayanması olub. Baş vermiş insidentlə bağlı videonu məzunlardan birinin böyük bacısı olan Kesidi Lendri adlı xanım öz İnstaqram səhifəsində paylaşıb. İnsident Memfis şəhərindəki baptist kilsəsi olan Belvyuda baş verib. "360"-cı telekanalın məlumatına görə, davanı iki qadın başladıb. Həmin vaxt zala məzunlar yavaş-yavaş daxil olurdular. Valideynlər kimin qabaqda dayanmasına görə mübahisə ediblər və bu, daha sonra əlli-qollu davaya çevrilib. İnsidentlə bağlı videogörüntülərdən bəlli olur ki, qadınlardan biri xüsusilə aqressivdir və eyni zamanda üç-dörd nəfər dava edən amerikanları polislər aralaşdırıb. Davanı başlayan qadının qoluna isə qandal bağlayıblar.




**QOÇ** - Ulduzların düzümü sağlıq durumunuzda problem olduğunu göstərməkdədir. Bu səbəbdən də qida və yuxu rejiminizə, xüsusən də baş nahiyənizə ciddi fikir verməlisiniz. Digər işləri təxirə salmaq da olar.

**BUĞA** - Ümumi əhvalınızda xoş məqamlar bol olacaq. Ələlxüsus da saat 15-dən sonra bəzi cəhdləriniz baş tutacaq. Əsas vaxtınızı sevgiyə həsr edin. Ulduzlar uzaq səfərə çıxmanızın əleyhinədir.

**ƏKİZLƏR** - Qarşınızda uğurlu bir gün durur. Qarşıya qoyduğunuz planların böyük əksəriyyətini reallaşdıra biləcəksiniz. Maraqlı görüş və tanışlıqlar da mümkündür. Nahardan sonra uzaq yola çıxmaq olar.

**XƏRÇƏNG** - Xırda-para işlər başınızı qatsa da, şəxsi büdcənizi artırmaq üçün kifayət qədər şansınız olacaq. Odur ki, bu istiqamətdə bütün gücünüzü səfərbər edin, ağır fiziki işlərdən yayınmağa çalışın.

**ŞİR** - İxtiyarınızda olan bu təqvimdə ətrafdakılarla mülayim olmağa üstünlük verin. Əgər ruhən sizə yaxın olan insanlara baş çəksəniz, böyük savab qazanmış olarsınız. Bütün hallarda bu gün bədbin düşüncələrdən azad olun.

**QIZ** - İntiqam hissi, əsəbi situasiyalara şərh vermək, münasibəti korlanmış iki nəfər arasında vasitəçilik etmək sizə zərər yetirə bilər. Bu səbəbdən də yalnız özünüzə aid işlərlə məşğul olun.

**TƏRƏZİ** - Planetar quruluşun intensivliyi, cəld reaksiyalar və ümumilikdə Azərbaycanda baş verən hadisələr həyatınızda dönüş yaratmaqdadır. Zamanın nəbzini tutun ki, qalib olasınız. Görüşləri axşama salın.

**ƏQRƏB** - Saat 14-ə qədər neytrallıq nümayiş etdirməyiniz məsləhətdir. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin. Sonrakı müddətdə isə perspektivli sövdələşmələr gözlənilir. Riskdən qorxmayın.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Ola bilsin ki, uzaqlardan sevindirici xəbər də alasınız. Hər halda, gün ərzində ovqatınız xoş olacaq. Nəqliyyat vasitələrində isə ehtiyatlı olmalısınız.

**OĞLAQ** - İkitərəfli əməkdaşlıq üçün düşərli vaxtdır. Buna baxmayaraq, müqavilə bağladığınız adamlarla ehtiyatlı davranın. Əgər təşəbbüskarlığı əlinizdə saxlasanız, hədəfə mütləq çatacaqsınız.

**SUTÖKƏN** - Yaxşı olar ki, bu təqvimdə bütün işlərinizi təxirə salasınız. Çünki fiziki yorğunluğunuzun ifratçılığı aktivliyinizə mane olacaq. Ruhi tarazlığınızı bərpa etmək üçün ziyarətgahlara baş çəkmək olar.

**BALIQLAR** - Bütün vacib işlərinizi günün birinci yarısında yekunlaşdırın. Çünki saat 14-dən sonra daxili süstlüyünüz yüksələ bilər. Axşama doğru maraqlı insanlarla rastlaşacaqsınız. Bu gün borc almayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Əli ilə çaydan timsah tutdu



Avstraliyanın şimalında bir kişi əli ilə çaydan timsah tutub. Şahidlər tərəfindən çəkilən video yerli xəbər portalı olan Northern Territory News saytında yayımlanıb. Kadrdan görünür ki, Nikolas Milyari Fitspatrik çayın ortasında dayanıb və bir neçə saniyə müşahidə aparır. O, daha sonra qəfil hərəkətlə timsahı tutub, onu boğazından sıxır. Ardınca sahilə çıxan kişi timsahı kameralara nümayiş etdirir. Videonun son saniyələrndə avstraliyalı timsahı yenidən çaya buraxır. Nəticədə nə heyvan, nə də avstraliyalı kişiyə heç bir xətər dəymir.

Nikolas etiraf edib ki, uşaqlıqdan ovçuluqla məşğul olur. O, illər ötdükdən sonra ovçuluq vərdişini itirib-itirmədiyini bilmək istəyib. Kişi qeyd edib ki, ilk dəfədir ki, timsah ovuna çıxıb. "Mən öz-özümə deyirdim ki, diqqətli və sakit ol, tez reaksiya ver. Mən əmin idim ki, hər şeyi düz edəcəm".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 3.070

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.